www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 16 noyabr 2015-ci il Bazar ertəsi № 254 (6282) Qiyməti 40 qəpik

**Xəbər**

## Bakıda ana 5 günlük uşağını küçəyə atdı

yazısı səh.10-da

**Gündəm**

### Eldar Mahmudov həbsə gedir - yeni xəbərlər




Sabiq nazirin mənzillərində axtarış aparıldı; müavinlərindən biri tutuldu, digəri işdən qovuldu; Akif Çovdarov da qandallandı...

yazısı səh.7-də

### Razi Nurullayevin təşkilatı AXCP kimi qeydə alınsa...

Ölkə müxalifəti hüququn yanında olacaq, yoxsa şəxsi münasibətlərin?

yazısı səh.8-də

*İlham İsmayıl:*

### "Azərbaycan hələ ki, İŞİD və PKK-nın hədəfində deyil, amma..."

yazısı səh.3-də

### 2016 - Qarabağ formatının dəyişdirilməsi ili ola bilər

yazısı səh.11-də

### Güneydə başlanan etiraz dalğası Türkiyədə davam edir

yazısı səh.6-da

### Hələ ki, "Yeni Müsavat"dan yaxşısı yoxdur" - İki bayram bir arada....

yazısı səh.4-də

### Sabiq nazirin yaxın qohumu radikal dindar imiş

yazısı səh.7-də

### Fransadakı terroru İslamla bağlamaq yanlışdır - azərbaycanlı ilahiyyatçıdan etiraz gəldi

yazısı səh.13-də

### Nazirlər işdən çıxarılır, baş nazirə niyə toxunulmur?

yazısı səh.10-da

### Ermənilər Azərbaycanın bu addımından qorxur

yazısı səh.11-də

### MilliÖn-ün "milli" kələyi - vətəndaşın ödədiyi əsginazlar... boşluğa düşür və "yox" olur...

yazısı səh.15-də

İqtidar da, Azərbaycan da əldən getməsin deyə...

# PREZİDENT HAKİM KOMANDANI DƏYİŞİR

YAP iqtidar düşərgəsində dəyişiklikləri cəmiyyətə real olaraq izah etməyə cəsarət etmir, məsuliyyəti partiya sədrinin üzərinə qoyaraq seyrçi mövqe tutur; İlham Əliyev isə hətta müxalifətin əvəzindən də işləyir və təhlükələri önləmək üçün bütün riskləri gözardı edir...




yazısı səh.5-də

## Dünya liderləri Antalyaya toplaşdı - Azərbaycan da diqqətdə...

Türkiyə qlobal siyasətin episentrində; qardaş ölkənin ev sahibi olduğu G20 sammiti misli görünməmiş təhlükəsizlik tədbirləri altında işinə başladı; mötəbər tədbirə ölkəmizin də xüsusi qonaq qismində qatılması Bakı üçün unikal şanslar açır...

yazısı səh.9-da



Elmira Axundova

### "Müharibə veteranı deputatın əməllərindən prezidentə yazdı

yazısı səh.10-da



### Elçin Behbudovun ölümü həmkarlarını şoka salıb

yazısı səh.3-də



*İran səfiri:*

### "Azərbaycanlıları təhqir edən verilişin aparıcısı azərbaycanlıdır"

yazısı səh.7-də

YENİ MÜSAVAT
N 254 (6282) 16 noyabr 2015

## W-20 iclası da baş tutdu



**Türkiyənin Antalya şəhərində qadınların W-20 iclası həyata keçirilib. Musavat.com Türkiyə mətbuatına istinadən xəbər verir ki, dünya liderlərinin xanımları bu gün W-20 iclası üçün bir araya gəliblər.**

İclasda Türkiyə prezidentinin xanımı Əminə Ərdoğan çıxış edib. Əminə Ərdoğan qaçqın böhranı ilə bağlı məsələlərə toxunub.

Qeyd edək ki, iclasda Azərbaycanın birinci xanımı Mehriban Əliyeva da iştirak edib.

## Bakının Nizami küçəsində daha üç obyekt bağlandı



**Bakının Nizami küçəsində daha üç obyekt bağlanıb. Musavat.com-un məlumatına görə, bağlanan obyektlərdən biri əvvəllər kafe, digər ikisi isə mağaza kimi fəaliyyət göstərib. Qeyd edək ki, son günlər Bakının müxtəlif yerlərində bu kimi çoxsaylı obyektlər fəaliyyətlərini dayandırıblar. Obyektlərin sahibləri bildirirlər ki, alıcı az, icarə və digər əlavə xərclər çox olduğu üçün onlar işləyə bilmirlər.**

Sahibkarlar onu da qeyd edirlər ki, fevral ayında manatın dollara nisbətdə ucuzlaşması onların işlərinə zərbə vuran ən böyük amillərdəndir.

❑ ƏLİ RAİS

## Bakıda 69 yaşlı kişi intihar edib

**Bakının Nərimanov rayonunda A.M.Cümə küçəsi 1969-cu məhəllədə intihar hadisəsi baş verib. Hadisə şahidlərinin musavat.com-a verdiyi məlumata görə, Bakı şəhər sakini, 1946-cı il təvəllüdlü Naqif İmamquliyev yaşadığı evdə intihar edib.**

N.İmamquliyev özünü 2-ci mərtəbədəki evinin pəncərəsindən yerə atıb. Başından ağır xəsarət alan N.İmamquliyev yerləşdirildiyi xəstəxanada bir neçə saat sonra vəfat edib.

Faktla bağlı Nərimanov Rayon Polis İdarəsində araşdırma aparılır.

❑ İlkin MURADOV

### Başsağlığı

**Rauf Arifoğlu və "Yeni Müsavat" qəzetinin kollektivi professor Adil Qeybullaya anasının vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.**

***

**Tofiq Əsədov və ailəsi hüquq müdafiəçisi Elçin Behbudovun vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.**

***

**Tofiq Əsədov Telman Orucova həyat yoldaşının vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.**


## "Elm" tədris mərkəzi

**MAGIC LANGUAGES**

- Ali məktəblər xarici dillər
- kompyuter kursları
- Magistratura - dövlət qulluğu - məntiq
- 1.C. mühasibat - anbar - bank işi
- Məktəbə qədər həftədə 5 dəfə
- Sürücülük kursları (1 aya 100 AZN)

**Ünvan:** 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
**Ünvan:** 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05

## "Qaya Mətbuat Yayımı" MMC!

**- İtənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı sldıqdan sonar abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Mesavat" - 0.40 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil, **Telefonla zəng etməyiniz kifayətdir: Bakı şəh. 564-63-45; 598-35-22**
- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur:


# Cahangir Hacıyev "Bandotdel"də bütün komandasını satır

**Azərbaycan Beynəlxalq Bankının (ABB) sabiq prezidenti Cahangir Hacıyev dünən DİN Mütəşəkkil Cinayətkarlığa Qarşı Mübarizə Baş İdarəsində ("Bandotdel") dindirilib.**



Bu barədə virtualaz.org saytına hüquq-mühafizə orqanlarındakı mötəbər mənbələrdən məlumat verilib. Məlumata görə, müstəntiqlər C.Hacıyevi qaytarılmayan çoxmilyardlıq kreditlər məsələsinə görə sorğu-sual edib.

Keçmiş milli təhlükəsizlik naziri Eldar Mahmudovun qudası olan C.Hacıyev istintaq tərəfindən əvvəl də dindirilib. Lakin bu sorğu-sual son vaxtlar intensivləşib. ABB-nin sabiq rəhbəri indi az qala hər gün bir neçə saatını "Bandotdel"də keçirməli olur.

"Böyük ehtimalla, Hacıyevin həbsi qaçılmaz olacaq", - deyə hüquq-mühafizə orqanlarındakı mənbə bildirib. Mənbənin sözlərinə görə, C.Hacıyev istintaq zamanı bütün günahları öz keçmiş həmkarlarının və tərəfdaşlarının üstünə yıxmağa çalışır.

## Şəkərli diabet hər 6 saniyədə bir can alır

**"Dünya ölkələrinin çoxunda səhiyyə xərclərinin 5-20 faizi şəkər xəstəliyi ilə mübarizəyə xərclənir. Bununla belə diabet hər 6 saniyədə bir can alır. Bu göstərici HİV, vərəm və malyariyanın - bu 3 xəstəliyin həmin zaman kəsiyində öldürdüyü insanların cəmindən çoxdur". Beynəlxalq Diabet Federasiyasının (BDF) hesabatında belə deyilir.**

Şəkər xəstələrinin 90 faizi diabetin iki tipindən əziyyət çəkir. Bunlar həddən artıq köklük və oturaq həyat tərzi ilə bağlıdır. Xəstəliyin bu növü sürətlə artır, xüsusilə də inkişaf etməkdə olan ölkələrdə. Hazırda şəkər xəstələri ən çox Çində qeydə alınıb.

BDF-nin icraçı direktoru Petra Uilsonun sözlərinə görə, diabet təkcə pasiyentləri yox, həm də ölkələrin iqtisadiyyatını risk altına alır. O, noyabrın 15-16-da Türkiyədə toplaşan "Böyük 20-lər"in liderlərinə çağırış edib. Onları 2008-ci il maliyyə böhranına qarşı hərəkət etdikləri kimi, həddən artıq köklüyə qarşı mübarizədə də əməkdaşlığa çağırıb.

Ancaq P.Uilson "Böyük 20-lik"dən səsinə səs veriləcəyi ilə bağlı hələlik bir işartı görmədiyini deyir.

2040-cı ilədək planetdə hər 10 yetkin adamdan biri diabet xəstəsi olacaq. Bununla da 2015-ci ildə 415 milyon olan şəkər xəstələrinin sayı 2040-cı ildə 642 milyona çatacaq. Diabetə çəkilən xərclər də 673 milyarddan 802 milyard dollara qalxacaq.

Bəzi ölkələr, o cümlədən Meksika, Çili və Fransa çıxış yolu kimi şəkərə vergi tətbiq etməyi sınaqdan keçirib. Ancaq qida sənayesinin və onların lobbiləşdirdiyi bəzi siyasi dairələrin müqaviməti ilə üzləşirlər. Məsələn, şəkərə verginin tətbiq olunduğu Meksikada bu yaxınlarda bəzi deputatlar həmin verginin iki dəfə azaldılması təşəbbüsü ilə çıxış ediblər.

Britaniyada şəkərli içki və yeməklərə rüsum tətbiqi üçün aparılan geniş kampaniyaya baxmayaraq baş nazir David Kameron buna qarşı olduğunu bildirib. P.Uilson isə inanır ki, siyasətçilər tütündən dərs çıxararaq insanların səhhətinin qayğısına qalmalıdır: "Məlumdur ki, tütünə verginin tətbiqi və tütünün insan sağlamlığına zərəri barədə bildirişin məcburiliyi yaxşı effekt verib. İndi biz şəkərə də eyni cür yanaşmalıyıq".

Ancaq P.Uilson onu da etiraf edir ki, tütündən fərqli olaraq, şəkərlə bağlı bu iş daha çətin olacaq. Ən azı ona görə ki, insan tütünsüz yaşaya bilər, amma şəkərsiz yox.



## Asim Mollazadə Fransa səfirinə başsağlığı və dəstək məktubu göndərib

**Demokratik İslahatlar Partiyasının sədri, deputat Asim Mollazadə Fransanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri xanım Orelia Buşezə Parisdə baş vermiş terror aktı ilə bağlı başsağlığı və dəktək məktubu göndərib. Məktubda deyilir: "Paris şəhərində törədilmiş dəhşətli terror aktları nəticəsində çoxsaylı insan tələfatı və yaralananlar barədə xəbər bizi sarsıtdı. Bu faciə ilə əlaqədar Fransa xalqının kədərini bölüşdüyümüzü bilmənizi istəyirik. Sizə, terror qurbanların ailə və yaxınlarına, dost Fransa xalqına dərin hüznlə başsağlığı veririk!"**

A.Mollazadə bildirib ki, hər hansı bir terror bütün insanlığa qarşı törədilmiş cinayətdir: "Mülki əhalinin qətlə yetirilməsinə heç nə bəraət qazandıra bilməz. Azərbaycan terrordan, günahsız mülki əhalinin qətlə yetirilməsindən əziyyət çəkən ölkə olaraq Fransanı yaxşı başa düşür. Terrorun vətəni, milləti, dini yoxdur. İstəyirik biləsiz ki, biz Sizinlə və terrordan əziyyət çəkən digər ölkələrlə birlikdə dünyada terrorizm əleyhinə qüvvələri birləşdirməyə və ona qarşı mübarizə aparmağa hazırıq. Əminik ki, bu faciə Fransa xalqını terrordan əziyyət çəkən xalqlarla qüvvəsini birləşdirməyə səfərbər edəcək və biz Sizinlə birlikdə bu bəlanın aradan qaldırılmasına nail olacağıq".

❑ Musavat.com

## Azərbaycanlı fəal zindanda aclıq aksiyasına başlayıb

**İranın dövlət televiziyasında Azərbaycan türklərinin iyrənc şəkildə təhqir olunmasına qarşı noyabrın 12-də Xiyavda (Meşkinşəhrdə) tutulan dinc fəal Beytullah Bərzigər noyabrın 15-dən başlayaraq saxlandığı Xiyav həbsxanasında aclıq aksiyasına başlayıb.**

Günaz TV bildirir ki, noyabrın 12-də fars irqçiliyinə qarşı keçirilən kütləvi aksiyada tutulan fəal qanunsuz həbsinə və zindan məmurlarının məhbus azərbaycanlılara qarşı zorakılığına etiraz olaraq aclıq aksiyası keçirmək qərarına gəlib. Fəala yaxın mənbələrin bildirdiyinə görə, Xiyav zindanında saxlanan adi məhbuslar da azərbaycanlıların dövlət televiziyasında təhqir edilməsi xəbərini eşidəndən sonra etiraza qalxıblar. Son məlumatlara əsasən, hazırda Xiyav həbsxanasındakı vəziyyət gərgindir.

Xatırladaq ki, noyabrın 6-da, İranın dini liderinin birbaşa nəzarətində olan Dövlət Televiziyasından yayımlanan "Fitilə" adlı proqramda Azərbaycan türkləri iyrənc bir şəkildə təhqir edilərək alçaldılıb.

Noyabrın 9-da İranın azərbaycanlılar yaşayan bütün əyalətlərində yüz minlərlə insan küçələrə axışaraq fars irqçiliyinə qarşı etiraz yürüşləri keçiriblər. Təbriz və Urmiyada yüzlərlə azərbaycanlı fəal tutulub, bir neçə adam bədən xəsarəti alıb, bir nəfər isə polis tərəfindən öldürülüb. Hadisədən bir həftə keçməsinə baxmayaraq azərbaycanlıların etiraz aksiyaları hələ də davam edir.

## Bakıda 54 yaşlı qadını şantaj edən gənc saxlanıldı

**Bakıda 54 yaşlı qadını rüsvay edəcəyi ilə şantaj edən 21 yaşlı gənc saxlanılıb. Musavat.com xəbər verir ki, hadisə paytaxtın Xətai rayonunda baş verib. Bakı şəhər sakini 21 yaşlı Eldəniz Kərimli bir neçə il öncə tanış olduğu 54 yaşlı M.Abdullayevanı (ad şərtidir) hədələyərək ondan pul tələb edib. E.Kərimli haqqında rüsvayedici məlumatlar yayacağı ilə şantaj edərək M.Abdullayevadan cari ilin iyul ayının 5-dən sentyabrın 15-dək 1000 manat və 1000 dollar alıb.**

Bir neçə gün öncə 21 yaşlı E.Kərimli M.Abdullayevadan təkrar 1000 manat tələb edib. Qadın şantaj olunması ilə bağlı Xətai Rayon Polis İdarəsinin 36-cı Polis Bölməsinə məlumat verib. Polis Eldəniz Kərimlini razılaşdırılan pulu M.Abdullayevadan alarkən saxlayıb.

Faktla bağlı araşdırma aparılır.

❑ İlkin MURADOV

## Türkiyədə antiterror əməliyyatı: 8 nəfər saxlanıldı

**Türkiyənin bir neçə bölgəsində antiterror əməliyyatı keçirilib. Axar.az xəbər verir ki, Silahlı Qüvvələrinin Baş Qərargahından verilən məlumata görə, Kilis bölgəsində Suriyadan Türkiyə ərazisinə keçən altı İŞİD üzvü saxlanılıb.**

Gaziantepdə isə İŞİD-ə qarşı keçirilən antiterror əməliyyatı zamanı axtarış aparılan bir evdə bomba partlayıb. Nəticədə beş polis yaralanıb. Partlayış olan evdə 2 qadın saxlanılıb, 3 azyaşlı isə aidiyyəti qaydada hökumət qurumlarına təhvil verilib.

YENİ MÜSAVAT
N 254 (6282) 16 noyabr 2015



# "Azərbaycan da terrordan sığortalanmayıb"

## Fransada baş vermiş faciə dünya ölkələrini hərəkətə gətirib; İŞİD-ə qarşı quru əməliyyatlarına başlana bilər...

**Fransa noyabrın 13-də törədilmiş terror aktı ilə çalxalanır. Faciə nəticəsində ölənlərin sayı, son məlumatlara görə, 130 nəfəri ötüb. Hər keçən gün ölənlərin sayı artmaqdadır. 252 nəfərin yaralandığını nəzərə alsaq, təəssüflə qeyd edə bilərik ki, qarşıdakı günlərdə də faciə qurbanlarının sayı arta bilər.**

Baş vermiş dəhşətli hadisə nəticəsində ölənlərin içərisində dünyanın 12 ölkəsinin vətəndaşı da var. Türkiyədə keçirilən G20 sammiti öncəsi Fransada baş vermiş terror hadisəsi bir sıra suallar doğurub. Əsas suallardan biri, niyə məhz qurban kimi Fransanın seçilməsidir.

Dünyanı təhlükə ağuşuna alan İŞİD terrorundan sonra dərhal müraciətinin yayılması bir çox üstüörtülü mətləblərin üstünü açdı. Terror təşkilatı açıq şəkildə törədilən faciəni öz üzərinə götürərək, Suriyanın bombalanması dayandırılmayınca, Fransada terror hadisələrinin davam edəcəyini bəyan etdi.

Qeyd edək ki, Fransa Suriya və İraqda İŞİD düşərgələrinin bombalanması əməliyyatlarında iştirak edir.

Məlum terror faciəsindən sonra bütün dünya ölkələri həyəcan təbili çaldılar. Artıq hər bir dövlətin terrorla üzləşməkdən sığortalanmaması barədə xəbərlər dolaşmaqdadır. Bu da insanlarda vahimə və qorxu hissləri yaradır. Faciədən dərhal sonra terrora qarşı birləşmiş koalisiya dövlətləri İŞİD-ə qarşı birgə quru əməliyyatlarına başlamaq barədə qərar qəbul etdilər. Bütün bunlar məsələnin nə qədər ciddi olduğuna bir işarədir.

Heç şübhəsiz ki, törədilən faciə ölkəmizdə də narahatlığa qarşılanıb. Sabiq MTN-çi İlham İsmayıl Fransanın hədəf seçilməsinə belə aydınlıq gətirdi: "Elə dövlətlər var ki, dünya siyasətini müəyyənləşdirir. Onlardan biri də Avropada Fransadır. Fransa prezidenti bəyan etdi ki, terrorun arxasında İŞİD dayanır. Bu terror təşkilatına qarşı ilk hava zərbələrini fransızlar endirmişdilər. Bu səbəbdən Fransa hədəf götürülə bilərdi. Başqa ölkələr də hədəf götürülə bilərdi. Lakin böyük ölkə nəzərdə tutulub. Təsir imkanlarını artırmaq üçün. İŞİD italyan televiziyasına müsahibəsində bildirib ki, bu Suriyanın qisasıdır. Açıq şəkildə Fransaya 11 sentyabr hadisələrini yaşatdıqlarını qeyd edirlər. Doğrudan da oxşar əlamətlər var. Məhz 2001-ci ilin 11 sentyabrında ABŞ-ın müxtəlif yerlərində terror hadisələri törədilmişdi. Fransanın da müxtəlif yerlərini terror əhatə etdi. Hesab edirəm ki, bu faciənin G20 sammiti öncəsi baş verməsinin başqa səbəbləri yoxdur. Çünki onsuz da G20-də İŞİD-ə qarşı mübarizə məsələsi müzakirə olunacaq. Bu baxımdan terror aktı sammitdən öncə də, sonra da baş verə bilərdi".



**İlham İsmayıl: "Azərbaycan hələ ki, İŞİD və PKK-nın hədəfində deyil, amma bu, istənilən an baş verə bilər"**

İ.İsmayıl Azərbaycanı gözləyən təhlükələrdən də söz açdı: "Terrordan heç bir dövlət sığortalanmayıb. Xüsusi xidmət orqanlarının profesionallığından asılı olmayaraq, şahidi olmuşuq ki, zaman-zaman ABŞ, İtaliya, İngiltərə və indi də Fransada da bu cür hadisələr törədilib. Fikirləşməyək ki, səhərisi gün İŞİD Azərbaycanda terror törədəcək, ya yox. Sadəcə olaraq, onu qeyd edim ki, Azərbaycan bu gün İŞİD və PKK-nın hədəfində deyil. Amma bu, istənilən an baş verə bilər. Çünki müsəlmanların yaşadığı ölkələrdə şəriət dövləti qurmaq üçün xüsusi plan həyata keçirilir. Xüsusi xidmət orqanlarımızın vəziyyətinin necə olmasından asılı olmayaraq, biz də bu cür faciələrdən sığortalanmamışıq. Terrorun hədəfində olan ölkəyik. İlk növbədə, erməni terror təşkilatlarının hədəfindəyik. Sonra da radikal islamçıların hədəfindəyik. Əsas terror təşkilatları bunlardır. Onların hər birinin Azərbaycanda xüsusi maraqları var. Eyni zamanda ölkəmizə qarşı maraqları olan cənub qonşularımız da, gələcəkdə təsir imkanlarını artırmaq üçün terrora əl ata bilərlər. Zaman-zaman bunun əlamətləri hiss olunub. Əgər belə bir hədəfdəyiksə, demək sığortalanmamışıq".

Sabiq MTN-çi İŞİD-a qarşı quru əməliyyatlarına başlamaq üçün dünya ölkələrinin verdiyi anonsa da toxundu: "Bu əməliyyatlara başlamaq o deməkdir ki, Suriya və İraqın tutulan əraziləri azad ediləcək. Dünya siyasəti indiyə qədər bu məsələdə ona görə birmənalı qərar tuta bilməyib ki, o işdə əli olan ölkələr Bəşər Əsədin hakimiyyətdə qalmasını istəyiblər. Bəlkə də belə bir situasiyanın yaranması Rusiyanın xeyrinədir. Rusiya düşünür ki, ən güclü ölkələrdən birində belə bir hadisə törədilirsə, G20-də əsas müzakirə mövzularından biri quru əməliyyatlarına başlamaq olacaq. Nəticədə Suriya və İraqın tutulmuş əraziləri azad ediləcək. O zaman bu ərazilər kimə veriləcək? Bəşər Əsədə, yoxsa hansısa türk dövlətinə? İndiyə qədər bu məsələnin həll yolunun uzanması Bəşər Əsədin hakimiyyətdə qalıb-qalmaması ilə bağlı sualların cavabsız qalmasıdır. Bəlkə də Rusiya hesab edir ki, Əsəd hakimiyyətdə qala-qala quru əməliyyatları keçiriləcək. Amma düşünürəm ki, Avropadakı terror aktlarının fonunda quru əməliyyatları keçiriləcəksə, əsas hədəflərdən biri Bəşər Əsəd olacaq. Onun hakimiyyətdən getməsi tələb olunacaq".

❑ **Cavanşir ABBASLI**

# Elçin Behbudovun ölümü həmkarlarını şoka saldı

## Hüquq müdafiəçiləri onu hörmətlə xatırlayır; mərhum ürək tutmasından dünyasını dəyişib...

**Xəbər verildiyi kimi, noyabrın 14-də gecə saatlarında İşgəncələrə Qarşı Azərbaycan Komitəsinin sədri, hüquq müdafiəçisi Elçin Behbudov ürək tutmasından dünyasını dəyişib. Şəkərli diabetdən əziyyət çəkən hüquq müdafiəçisi ölümündən iki gün əvvəl xəstəxanaya yerləşdirilmişdi.**



Elçin Behbudov

Hüquq müdafiəçisinin qəfil ölümü ölkə ictimaiyyətini şoka salıb. Hələ də onun ölümünə inanmayanlar var. Qeyd edək ki, mərhum 2002-ci ildə İşgəncələrə Qarşı Azərbaycan Komitəsini təsis etmişdi. Bu illər ərzində o, ölkəmizdə işgəncələrin qarşısının alınmasında müəyyən xidmətlər göstərib. Özü də komitəni təsis etməmişdən əvvəl həbs, təzyiq və ağır işgəncələrə məruz qalıb.

Həmkarlarının E.Behbudovla bağlı fikirlərini aldıq. Dilarə Əliyeva adına Qadın Hüquqlarını Müdafiə Komitəsinin sədri Novella Cəfəroğlu E.Behbudovu belə xatırlayır: "Normal, ailəsini sevən bir insan idi. Çox yaxşı münasibətimiz var idi. Ölümündən bir müddət əvvəl vəziyyətini soruşdum. Ona nə desəydik, problemsiz gedirdi. Təcridxanalara, həbsxanalara onun getmək imkanları daha çox idi. Çox gözəl insan idi. Son günlərdə baş verən hadisələr ona da ağır təsir etdi. İşini canla-başla yerinə yetirən insan idi".

Neftçilərin Hüquqlarını Müdafiə Komitəsinin sədri Mirvari Qəhrəmanlı bildirdi ki, E.Behbudov problemi olan insanlara mümkün qədər kömək etməyə çalışıb: "Hüquq müdafiəçisi olana qədər işgəncələrə məruz qalmışdı. Ona görə bunu qeyd edirəm ki, özü əzab görən adam bu sahə üzrə daha yaxşı anlama malik olur, müdafiə qura bilir. Olduqca yaxşı insan, hüquq müdafiəçisi idi. Hüquq müdafiəçisinin işi çox ağır olur. Haqqını müdafiə etdiyin insan elə düşünür ki, sən onun istədiyini deməlisən. Elçinin fəaliyyət göstərdiyi sahə çox ağır idi. O, bacardığı qədər işgəncəyə məruz qalan insanlara əlindən gələn köməyi edib. Ölkə üzrə bu sahədə alternativ hesabatlar tərtib edib. Böyük hörmətim olub ona. Allah rəhmət eləsin. Qəbri nurla dolsun".

Hüquq müdafiəçisi Səadət Bənəniyarlı onun ölüm xəbərinə inanmaq istəmədiyini söylədi: "Məlumdur ki, Elçin Behbudov hansı zamandan sonra hüquq müdafiəçisi olub. O, həbs olunmuş, təzyiqlərə, işgəncələrə məruz qalmışdı. Həbsdən çıxdıqdan sonra buna uyğun özünə həyat yolu seçmişdi. Onun əsas işi həbs edilənlərlə bağlı monitorinqlər aparmaq idi. Onu bir həmkar kimi daim xoş sözlərlə xatırlayacağıq. Elçin bəyin ölümü mənim üçün gözlənilməz oldu. İnternetdən məlumatı oxudum. Hadisəni eşidəndə çox üzüldüm. Onun yaxınlarına, ailə üzvlərinə başsağlığı verirəm. Bir insan kimi, göstərdiyi fəaliyyətə, xidmətlərinə görə Allah onun ruhunu şad eləsin. Onun barəsində ancaq yaxşı sözlər deyə bilərəm. Həyatda qalıb işini davam etdirsəydi, bizim üçün ancaq müsbət olardı. İlk dəfə olaraq, yaxın bir şəxs barədə müsahibə verirəm. Mənim üçün olduqca çətindir. Elçin bəyin xəstə olduğunu bilirdim. Yaşadığı stresslər həyatına ciddi təsir elədi".

Elçin Behbudov 1960-cı il təvəllüdlü, əslən Şuşadan idi. "Yeni Müsavat" olaraq, mərhumun yaxınlarına, ailə üzvlərinə başsağlığı verir, səbir diləyirik. Allah rəhmət eləsin!

❑ **Cavanşir ABBASLI**

# Fransa terroru nefti bahalaşdıracaq

**Fransadakı terror ölkəyə milyardlarla ziyan vuracaq. Bu hadisə avroya da təsirsiz ötüşməyəcək. Bu sözlərlə iqtisadçı ekspert Qubad İbadoğlu çıxış edib. Ekspertin fikrincə, ötən il 47 milyon ziyarətçini yalnız Paris şəhərinə cəlb edən ölkənin iri turizm sənayesi bu il ən çox itki verən sektor olacaq:**



Qubad İbadoğlu

"Dünyanın 6-cı güclü iqtisadiyyatına malik olan ölkədə bu gecə baş verənlər beynəlxalq bazarlara da təsirsiz ötüşməyəcək. Bu hadisənin həm ölkə iqtisadiyyatına və həm də dünya bazarlarına təsirləri birbaşa və dolayı olmaqla ikili xarakter daşıyacaq. Bu terror aktından birbaşa təsirlənən turizm, nəqliyyat, mehmanxana, ictimai iaşə və ticarət sektoru olacaq".

Q.İbadoğlunun fikrincə, ən çox təsirlənən qiymətli kağızlar və valyuta bazarı ola bilər: "Xammal birjaları arasında isə bu hadisədən az da olsa təsirlənən enerji bazarı ola bilər. Belə ki, bu hadisənin təsirindən artan təklifin hesabına son günlər ucuzlaşan xam neftin qiymətində azacıq da olsa bahalaşma müşahidə oluna bilər".

Qeyd edək ki, 2014-cü ildə Fransa dünyanın terrordan əziyyət çəkən 56-cı ölkəsi idi.

# Klintondan mesaj: "ABŞ islamla mübarizə aparmır"

**Dünya beynəlxalq terrorizmlə mübarizəyə qarşı birləşməlidir. Axar.az xəbər verir ki, bunu ABŞ prezidentliyinə namizəd Hilari Klinton De-Moyn şəhərindəki debatlar zamanı söyləyib.**

Onun sözlərinə görə, ABŞ öz iradəsini toplayaraq, bütün dünyanı terrora qarşı birləşdirməlidir: "Mən bizim Avropadakı dostlarımız və müttəfiqlərimiz üçün hər şeyi detallarına qədər izah etməyə hazıram. Biz İŞİD-i yalnız dayandırmaq üçün birləşməməliyik, biz onu məğlub etməliyik. ABŞ təkbaşına İŞİD-lə savaşa bilməz, amma Amerikanın bu məsələdə liderliyi çox önəmlidir. ABŞ islamla mübarizə aparmır".

Klintondan sonra çıxış edən digər namizəd Vermont Berni Sanders isə Klintonu İraqda müharibəni dəstəkləməkdə təqsirləndirib: "İraq müharibəsi Yaxın Şərqə xaos gətirdi. Bu isə İŞİD-in yaranmasına səbəb oldu".

YENİ MÜSAVAT
N 254 (6282) 16 noyabr 2015

# Hələ ki, "Yeni Müsavat"dan yaxşısı yoxdur"

## "Yeni Müsavat"da iki bayram bir arada...

**Hadisələrlə dolu həftə... Həbslər, kreslosu ilə vidalaşanlar, dünyasını dəyişənlər, terror aktları... Bütün bunları yazdıq, nəzmə çəkdik, çatdırdıq... Oxucular olanları ən incə detalına qədər öyrənsin deyə.**





Amma ötən həftəni bizlər üçün əlamətdar edən bir başqa hadisə isə hər gün görüşünüzə gələn qəzetin - "Yeni Müsavat"ın 26-cı yaş günü idi. Həftə içi bu əlamətdar günü redaksiyada qutladıq, təbrikləri qəbul etdik, keçdiyimiz yola bir nəzər saldıq, özümüz də, digər media orqanları da baş redaktor Rauf Arifoğludan bəs deyincə müsahibə aldı... Bura qədər hər şey normal... Bəs bu əlamətdar günün bir də "bədii hissəsi" olmalı deyilmi?

Həftənin əvvəlindən vəd verilən qutlama tədbiri şənbə günü Bakıdakı restoranlardan birində baş tutdu. Osmanlı türkləri demiş, yediyiniz-içdiyiniz sizin olsun, gördüklərinizi anladın. Biz də oxucularımıza həmin tədbirdə yaşananları bir-bir çatdırmaq istədik. Zarafat deyil, Azərbaycan mətbuat tarixində iz qoyan bir qəzetin yaradıcılarının hər sözü, xatirəsi, danışığı bir tarixdir. Çoxlarının unutduğu, bəzilərinin bilmədiyi, amma film kimi bir hekayə... Odur ki, başladıq.

Tədbir saat 6-ya təyin olunsa da, xanımların bəziləri gözəllik salonundakı ləngiməyə, bəylərin bəziləri isə tıxacın



əzizliyinə tuş gəldiyi üçün ancaq saat 7-yə yaxın bütün heyət bir araya yığışdı. Bu dəfə planlaşdırma üçün yox, əylənmək üçün. Üstəgəl, bizim bir araya gəlməyimizin digər önəmli səbəbi də musavat.com saytının redaktoru Xalid Kazımlının 50 yaş yubileyi idi. Əsrin yarısını devirən və "ruhu da inciməyən" Xalid bəy üçün redaksiyanın bütün əməkdaşları canla-başla bir masa ətrafında toplaşmışdı. Hətta aylardır redaksiyaya ayaq basmayan, uzaq məsafədən çalışan bəzi köşə yazarları da. Bu haqda bir qədər sonra...

Tədbirin bədii hissəsinə keçməzdən əvvəl "Yeni Müsavat"ın baş yazarı Rauf Arifoğlu bütün kollektivi bu əlamətdar gündə işdən, planlaşdırmadan kənarda görməkdən məmnun olduğunu bildirdi. X.Kazımlının yarım əsrlik yubileyinin, qəzetin isə 26 yaşının eyni günə təsadüf etməsinin məmnunluğu da öz yerində.

Bu günə qədər "Yeni Müsavat"dan 1000-ə yaxın insanın gəlib keçdiyini xatırladan baş yazar "biz özümüzlə bərabər çox imzaları yetişdirdik" dedi: "Buradakı jurnalistlərə baxır və düşünürəm ki, onların hər biri bu qəzet üçün əvəzolunmazdır. Dünyadakı proseslərin fonunda jurnalistika üçün fasilə yoxdur. Hər dəqiqə xəbər, hər dəqiqə yenilik. Mən başda "Yeni Müsavat"çılar olmaqla, bütün jurnalistlərlə xəbərsiz qalmamağı, fasilə verməməyi arzulayıram".



Səbəbkarlardan biri Xalid Kazımlı isə bildirdi ki, imzasının imza olmasında "Yeni Müsavat"ın rolu böyükdür: "Uzun illər bu qəzetdə işləyənlər, onların əməyi bu qəzeti qəzet edib və indi də liderliyini qorumaqda onların rolu böyükdür".

"Yeni Müsavat"ın dostlarından olan Pənah Hüseynə görəsə, həyat insanları rəngləndirərək davam edir. Onun sözlərinə görə, Azərbaycanda oxucuların həyatını rəngləndirən nəsnələrdən biri də "Yeni Müsavat"dır.

"Yeni Müsavat"ın baş redaktorunun 1-ci müavini Azər Ayxan isə kollektivdə keçən saatları özü üçün olduqca doğma hesab etdiyini bildirdi: "Səhər saat 9-dan axşam 21.00-ə qədər davam edən iş mühiti ən azı ailə mühiti qədər doğmadır. İnanın ki, qəzetdə özümü evimdəkindən də rahat hiss edirəm. İndi bizim məclisimizdə qəzetimizdə vaxtilə çalışmış dostlarımız da var. Onu deyim ki, bizim üçün keçmiş "Yeni Müsavat"çı yoxdur, biz onları da doğmamız sayırıq".

Söz qəzetin baş direktoruna - Ələsgər Süleymanova veriləndə isə avtomatik olaraq qonarar, pul-para assosiasiyası yarandı. O da illərin baş direktoru olduğu üçün zarafatı göydəcə tutub, elə o ruhda da, qısa və lakonik çıxış etdi: "Mən sizin hamınızı çox istəyirəm. Sizin pulu istədiyinizdən də çox istəyirəm. (gülür)"

R.Arifoğlunun tez-tez "Həsən, yadında?" deyə etdiyi zarafatın obyekti, qəzetlə uzun illər yol gəlmiş Aygün Muradxanlı isə "Yeni Müsavat"ı ata ocağı adlandırdı: "Hara getsək də, bura qayıdırıq. Böyük brenddir. Hara getsəm, fəxrlə deyirəm ki, "Yeni Müsavat"da işləyirəm. Hər zaman qəzetə qələbə arzulayıram. Çünki həmin qələbə günlərində neçə yaşımız olsa da, dünyanın harasında qarşılaşsaq da, sevinclə bir-birimizi təbrik edəcəyik".

APA-nın redaktoru, "Yeni Müsavat"la uzun illər yol gəlmiş Məhbubə Qasımbəyli üçün qəzetimiz gözəl bir nostalgiyadır: "Bu qəzet böyük bir məktəbdir. Nə xoş ki, biz də bu məktəbin məzunlarıyıq".

Daha bir eks-əməkdaşımız Sülhiyyə Şirinova da "Yeni Müsavat"ı ata evi adlandırdı. Nə qədər uzaqda olsa da, gedib-gələcəyi, səmimi bir ocaq...

Və söz demə növbəsi yuxarıda barəsində işarə verdiyimiz köşə yazarına - Zamin Hacıya çatdı. Zamin bəy məclis iştirakçılarına xatırlatdı ki, səbəbkarlardan biri ilə onların hamısından əvvəl tanışdır. Aşağı Seyidəhmədli kəndində Xalid Kazımlını tanıyanda hələ yollarının daha sonra "Yeni Müsavat"da kəsişəcəyini bilmirmiş: "Və onunla tanışlığımdan da hər zaman qürur duymuşam. Xalid Kazımlı çox dəyərli və istedadlı jurnalistdir. İkinci səbəbkara, "Yeni Müsavat"a gəlincə, mən bu qəzetlə də fəxr edirəm. Heç bir qəzet yazılarımı dərc etməyəndə "Yeni Müsavat" məni dərc edib. Sizə olmuş bir hadisəni danışım. Demək, 2000-ci ildir, yanvardır. Ağır bir əsgərlikdən gəlmişəm. İmişli rayonundakı qaçqın düşərgəsinə, doğmalarımın yanına getmişəm. Bir də xəbər gəldi ki, bir nəfər məni axtarır. Baxıb gördüm ki, Elbəyi Həsənlidir. Rauf Arifoğlu onu mənimlə müsahibəyə göndərmişdi. Mən onda heç "Yeni Müsavat"da çalışmırdım. Çox adam deyir ki, Rauf Arifoğlu insanlara, xüsusən də öz işçilərinə dəyər verir. Təsəvvür edin ki, öz qəzetim olan "Azadlıq" mənim əsgərlikdən qayıtmağımla bağlı bir cümlə yazmır. Amma "Yeni Müsavat" öz müxbirini göndərir ki, məndən müsahibə alsın".

Z.Hacı "Yeni Müsavat" barədə fikirlərinə isə orijinal bir yekun vurdu: "Bir məşhur söz var. Mən onu "Yeni Müsavat"ın timsalında demək istəyirəm. Bəli, "Yeni Müsavat" qəzetinin qüsurları var. Amma hələ ki, ondan yaxşısı yoxdur".



Lent.az-ın baş redaktoru Qabil Abbasoğlu isə hər iki səbəbkarın ona doğma olduğunu dedi: "Dünyanın harasında olsam da, ayrı qaldığımız illərdə sə özümü "Yeni Müsavat"dan ayrı hiss etməmişəm.



Dostlarım o qədər təşəkkürə layiqdir ki. Çünki onlar bu zamana qədər qəzetin sağ-salamat gəlib çıxmasına səbəb olublar".

"Yeni Müsavat"ın şinelindən çıxmış, hazırda isə bir media holdinqə rəhbərlik edən Aynur Camal dedi ki, "Yeni Müsavat" ona çox doğmadır: "Hərdən facebookda iclas fotolarına baxanda qeyri-ixtiyari həyəcanlanıram ki, mən niyə orda yoxam, gecikdimmi iclasa? (gülür) Çünki bu qəzet mənə çox doğmadır. "Yeni Müsavat"a qədər də mənim imzam tanınırdı. Amma bu qəzetdə daha da məşhurlaşdı. Mənim ürəyimdə hər zaman sizə qarşı doğmalıq var. Ona görə də uğurlarınızın davamını arzulayıram".

APA-nın redakoru, "Yeni Müsavat"ın eks-redaktoru Şahin Cəfərli isə bu illər ərzində qazandıqlarının itkilərindən daha çox olduğunu dedi: "Çünki biz bu kollektivdə səmimi dostluqlar qazandıq. Bilirik ki, sabah nəsə bir dara düşsək, "Yeni Müsavat"ın qapıları taybatay üzümüzə açıqdır".

APA-nın digər redaktoru, "Yeni Müsavat"ın eks redaktoru Cavid Cabbaroğlu isə "Yeni Müsavat"da işlədiyi 5 ili həyatının ən şərəfli illəri adlandırdı: "Əgər siz bizi hər il bu qəzetin ad günündə görürsünüzsə, deməli, biz bu ailənin bir üzvüyük və burada ailə mühiti var".

İstiqlal.az saytının redaktoru, eks "Yeni Müsavat"çı Qadir İbrahimli isə jurnalistikada keçmiş iş yoldaşı anlayışının olmadığını dedi. R.Arifoğlunun bu sözə replikası isə özünü gözlətmədi: "Qısa müddət sonra "Yeni Müsavat"a qayıdacaqsan".

Yemək, musiqi, rəqs fasilələri... ilə müşayiət olunan bu xoş sözlər bütün məclis boyu səsləndi. Qəzetdə yaşadıqları maraqlı xatirələrini danışan kim, lətifəyə çevrilən hekayələri, dillərə dastan replikaları xatırladan kim...

Yubilyar X.Kazımlı isə maraqlı bir yekun vurdu çıxışlara: "Bir neçə gün əvvəl Rauf Arifoğlu mənim ad günümlə bağlı çox isti bir yazı yazdı. Düşündüm ki, indi bu yazını mən yazmış olsaydım, deyəcəkdilər ki, məddahlıq edir. Amma bir-birimizə xoş sözlər deməyə çəkinməyək. Sizə də məsləhət görürəm ki, içinizdən gələn gözəl sözləri bir-birinizə deyin. Çünki kimin nə deməsindən asılı olmayaraq, xüsusən söz adamları üçün dəyərli, isti sözün əvəzi yoxdu".

Beləcə, "Yeni Müsavat"ın da, X.Kazımlının da yeni yaşını qutlayıb, yeni bir yaşa, yeni bir səhifəyə doğru yola çıxdıq. Bir az çətin, məsuliyyətli, amma bir o qədər də xoş yola. Hamınıza, hamımıza uğurlar...

**Sevinc TELMANQIZI**
**Foto "YM"**

Yeni Müsavat
N 254 (6282) 16 noyabr 2015

# İqtidar da, Azərbaycan da əldən getməsin deyə...

**Prezident İlham Əliyevin son bir ayda iki naziri işdən çıxarması, antikorrupsiya həbslərinin yeni dalğasının başlaması ölkə ictimaiyyətinin bütün diqqətini iqtidar komandasında baş verənlərə yönəldib. Siyasi proseslərə təsir imkanları minimal olsa da, son parlament seçkilərində qələbəsini elan etmiş hakim Yeni Azərbaycan Partiyasının (YAP) baş verənləri cəmiyyətə real olaraq izah etməyə cəsarəti çatmır, yalnız "prezidentin səlahiyyətlərinə daxil olan məsələyə şərh vermirik" deyərək, bir-iki əlavə cümlə ilə işlərini bitmiş sayırlar.**




# Prezident hakim komandanı dəyişir

## YAP iqtidar düşərgəsində dəyişiklikləri cəmiyyətə real olaraq izah etməyə cəsarət etmir, məsuliyyəti partiya sədrinin üzərinə qoyaraq seyrçi mövqe tutur; İlham Əliyev isə hətta müxalifətin əvəzindən də işləyir və təhlükələri önləmək üçün bütün riskləri gözardı edir...

YAP-ın siyasi nəbzini bilən Siyavuş Novruzovun Eldar Mahmudov nazir postundan uzaqlaşdırıldıqdan sonra hakimiyyətə yaxın deputatların sərt danışmasına "mollalıq etməsinlər" deməsi hakim partiyanın tutduğu mövqeyi əsaslı şəkildə ortaya qoymuş oldu: YAP siyasi hakimiyyətdə ciddi kadr dəyişikliyini arzu etmir, işdən çıxarılanlara korrupsiyaçı, cinayətkar deyilməsini həzm edə bilmir, "müxalifət mətbuatı yenə qızışacaq" düşüncəsi ilə hətta bu dəyişiklik prosesindən özlərinə təhlükə görüb çəkinirlər də...

Fikir verin, oktyabrın 17-dən üzü bəri iqtidarın faktiki həm də təhlükəsizlik naziri olan Eldar Mahmudovun, hakim partiyanın Siyasi Şurasının üzvü Əli Abbasovun işdən rüsvayçılıqla qovulmasına YAP-ın ortaq reaksiyası-bəyanatı belə yoxdur. Halbuki Rusiyada Putinin partiyasında bu kimi həbslər gerçəkləşəndə-qubernatorlar, merlər qandallananda "Vahid Rusiya" funksionerləri günlərlə bu mövzunu açıq müzakirə edir, bəzən rüşvətxor məmurların ifşa proseslərini özləri başlayırlar.

YAP tarixində ilk dəfə deyil bu situasiya ilə üzləşir, ortada Fərhad Əliyev, Əli İnsanov, Gülər Əhmədova nümunəsi var. Fəqət, bu dəfə onlar fərqindədirlər ki, neft pullarının azaldığı, iqtisadiyyatın idarəedilməsində çətinliklərin yarandığı, sosial problemlərin artdığı, Qərblə bir çox məsələlərdə yol ayrılığı, Rusiyanın Azərbaycanla bağlı min bir oyun qurduğu şəraitdə bu kimi dəyişikliklər çox risklidir. Bu səbəbdən də aydın görünür ki, prezidentin partiyası bütün məsuliyyəti prezident İlham Əliyevin üzərinə qoyaraq həyəcanla bu "fırtınanın" nə zaman bitəcəyini gözləyirlər. Fırtına isə yeni başlayıb...

***

Hakim komandada mümkün dəyişiklik barədə hələ yay aylarından əvvəl də danışılırdı. Çünki ölkə iqtisadiyyatı neftin qiymətinin tənəzzülü ilə yeni mərhələyə adlayıb, hakimiyyət artıq əvvəlki rahatlıqla dövlət büdcəsini yönləndirə və xərcləyə bilmir ki, 2016-cı il üçün qəbul olunmuş büdcə bunu faktiki təsdiqlədi. Yeni siyasi-iqtisadi şərait isə daha rasional komandanın formalaşdırılmalısını, qeyri-neft sektorunu, xüsusilə sahibkarlığın inkişafını sürətləndirə biləcək islahatlar aparılmasını zəruri edir. Amma bu keçid mərhələsi göstərdi ki, yeni iqtisadi şəraitdə "aşağılar" əvvəlki qaydalarla yaşamaqda davam etsə də, "yuxarılar" daha çox pay uğrunda didişmədən vaz keçmək istəmirlər. Prezident son aylar keçirdiyi müşavirələrdə komandasına yönəlik tənqidləri hər dəfə artırması, sonra daha sərt ifadələr seçməsi, nəhayət "heç kim toxunulmaz deyil, cəzalandıracam"deməsi "yuxarılardakı" əhval-ruhiyyəni göstərirdi.

"Biz liberal iqtisadiyyat modelini, bazar iqtisadiyyatı yolunu seçmişik. Biz bu yolla gedirik və görün nə qədər uğurlar əldə etmişik. Əgər ölkə daxilində mane olanlar, yoxlamalar, rüşvətxorluq, lisenziyalar, haqq qoymaq olmasaydı, biz nə qədər böyük uğurlar əldə edərdik, büdcəmiz nə qədər artardı. Nə qədər buna dözmək olar? Artıq qurtardı, hövsələm yoxdur! Hər kəs nəticə çıxartsın. Nəticə çıxartmasa, cəzalandırılacaq". Prezidentin oktyabrın 12-də keçirdiyi sonuncu müşavirədəki çıxışında səlahiyyətləri xeyli azaldılmış, "müalicədə olan" Ziya Məmmədovdan başqa bütün nazirlər, eləcə də Eldar Mahmudovla Əli Abbasov da iştirak edirdi. Amma yəqin heç kimin ağlına gəlməzdi ki, prezident bir həftə sonra milli təhlükəsizlik nazirini işdən çıxaracaq, MTN-də ölkəni silkələyən həbslər başlayacaq. Sonra digər nazirliklərdə rəhbər şəxslər qandallanacaq, dəyişiklik ruzigarı ölkənin "ən fağır naziri" hesab olunan Əli Abbasovu da rahat kabinetindən didərgin edəcək.

Həm E.Mahmudov, həm Ə.Abbasov 11 illik nazirlər idi, hər ikisi 2004-cü ildən yüksək post tuturdu.11 rəqəminin "sonu" simvolizə etdiyi aydındır. Amma bu dəyişiklik son deyil, bəlkə də başlanğıcdır.

***

Azərbaycandakı indiki vəziyyət bir az da qədim döyüş səhnələrini xatırladır: tamaşaya yığılmış xalq baş barmağının işarəsi ilə məğlub döyüşçünün öldürülməsini, ya da bağışlanılmasını istəyir. Görünən odur ki, barmaq işarəsini aşağı endirənlər ("öldür!") indi daha çoxdur. Xalq həm də dünənin məğlubedilməz, adamları incidən, soyan və söyən "döyüşçülərin" əfv üçün sürünməsini, ifşasını böyük zövqlə izləyir.

Ölkənin gündəmi dəyişib, diqqət prezidentə yönəlib və hamı bu dəyişikliklərin davamını istəyir. Bu, hakimiyyət üçün bəzi müxaliflərin iddia etdiyi kimi, qurAşdırılmış tamaşa deyil. Çünki dəyişikliklər komanda daxilində gərginliklər yaradacaq, işdən çıxarılan nazirlərin əlində sərvət toplamış ətrafı da narazı qalacaq. Hələ daha köklü budaqlar silkələndikcə, siyasi səhnəyə bəlkə də "pullu müxalifət" də çıxacaq. Amma bunların heç biri hakimiyyəti təhdid edəcək səviyyədə ola bilməz. Situasiyanı xəbərdarlıqlardan nəticə çıxarmayan, yeni dövrün diktə etdiyi qənaət və vicdan normaları ilə uyğunlaşmayan, "daha çox yeyək, daha çox oğurlayaq" devizi ilə vəzifə tutanlar təhlükəli məcraya yönəldirlər. Bu situasiyanın qarşısını almaq mümkün olmazsa, hakimiyyət də, elə Azərbaycan da əldən gedər. Vəziyyəti isə hamıdan yaxşı bilən və görən prezidentdir.

***

Hakim komandada ciddi dəyişiklikləri zəruri edən əsas amillərdən biri də YAP-ın hələ də radikal damğası ilə tanıtdığı müxalifətin... yoxluğudur. Məntiqlə əksinə olmalı, iqtidar güclü müxalifət səbəbindən dəyişikliklərə meyilli olmalı idi. Amma müxalifət siyasi səhnədən uzaqlaşdırıldıqdan sonra dövlət başçısı müxalifət funksiyasını da icra etməkdədir. O, komandasını müxalifət adından danışanlardan daha sərt tənqid edir, işlərini düzəltmək süreci verir və cəza tədbirləri görür. Nəinki daxili məsələlərdə müxalifətin tələblərini, hətta xarici dövlət başçılarının xahişlərini eşitməkdən xoşlanmayan prezidentə, görünür ki, belə işləmək daha rahatdır...

Kadr dəyişikliklərini zəruri edən daha bir ciddi səbəb Qərblə Azərbaycan hakimiyyəti arasında problemlərin 2015-ci ildə daha da dərinləşməsidir. 2015-ci ildə Azərbaycan hakimiyyəti Qərbin total olaraq ciddi tənqid hədəfi oldu, Amerika ilə münasibətlərdəki gərginlik səngimədi, Avropa institutları (Avropa Parlamenti, ATƏT) ilə qarşıdurma daha da şiddətləndi. YAP onları söymək və tənqid etmək yarışında önə çıxdı, amma bunlarla gerçəkliyi dəyişmək olmaz. Qərb Azərbaycan hakimiyyətini sıxdıqca Rusiya yaranmış fürsətdən istifadə edir, Azərbaycanın bütün sahələrinə əl qoyur, özünü dost kimi sırıyır. Qərblə qarşıdurma, Rusiya ilə xoş olmayan yaxınlaşma davam etdikcə hakimiyyətin yalnız bir optimal yolu qalır: daxildən real olaraq güclənmək, siyasi islahatlara başlamaq və ölkəni qarşıdakı çətin dövrə hazırlamaq.

Prezident İlham Əliyevin son aylar atdığı siyasi, sosial və iqtisadi addımlarının, fərman və sərəncamlarının politoloji izahı budur. Prezident "xalq arasında olan" YAP nomenklaturasından fərqli olaraq, bu təhlükəni daha yaxşı görür və o səbəbdən məsələdə "vəssalam" deyəcək qədər qərarlı görünür.

❑ **"Yeni Müsavat"**

# Onları başqa cür görmək istəyən varmı?



**Hüseynbala SƏLİMOV**

**Bəlkə də bir az ironiya doğuracaq. Amma Rusiya qəzetlərindən birinin olduqca maraqlı devizi var: "Həqiqəti demək asan və xoşdur..." Bir daha deyirik ki, bu, ironiya da doğura bilər. Ona görə ki, söz demək bir şeydir, onu etmək tamam başqa. Və mən də belə hesab edirəm ki, bu sözləri deyənlərin vətənində - Rusiyada həqiqəti demək elə də asan deyil. Ən azı ona görə ki, onu - həqiqəti deyənlərin aqibətini də görmüşük o ölkədə...**

Nə isə. Bu gün heç də Rusiyadan danışmaq fikrində deyilik. Hamı kimi bizi də Fransada baş vermiş terror aktı sarsıtdı desək izafi şişirtməyə yol vermərik və güman edirik ki, 150 - dən çox günahsız insanın ölümü heç kimi biganə buraxa bilməz...

Bəlkə də sonra dəqiqləşmələr olacaq. Amma ilkin məlumatlar terror aktını İŞİD və Suriya ilə bağladı. Ona görə də bir sual vermək istərdik. Dedik ki, bu terror aktı Fransada 150-dən artıq adamın həyatını aparıb. Amma dörd il ərzində Suriyada nə qədər adam ölüb? Min? On min? Yüz min? Bəli, sayıb və hesaba alıb bir söz demək olduqca çətindir...

Təbii ki, Suriyada vətəndaş müharibəsində yüz minlərlə adam ölübsə bu, o demək deyil ki, Fransada da günahsız insanlar ölməlidir. Əlbəttə ki, yox! Əgər kimsə bunun əksini düşünürsə, deməli onun ürəyi yoxdur, yaxud da nifrət gözlərini elə tutub ki, ağı qaradan ayıra bilmir...

Amma bu gün müsəlman Şərqi bir bumeranqa dönüb dünyanın aparıcı dövlətlərinin sifətinə dəyir. Niyə görə? O səbəbdən ki, illərlə həmin dövlətlər bu ölkələrə yalnız neft çəlləyi kimi baxdılar, bundan o tərəfi görmədilər, görmək istəmədilər...

Bu yaxınlarda bir Qərb qəzeti həyəcanla yazmışdı ki, bir müddətdən sonra Yaxın Şərqdə artıq xristian qalmayacaq. Amma biz bunu yazanlardan soruşmaq istərdik: siz heç olmasa bircə dəfə orada xristianların da yaşamasını düşündünüzmü?

Yox, düşünmədilər. Elə "müsəlman ölkələri" deyib durdular. Suriya azsaylı islam ölkələrindən biri idi ki, onun çox qədim xristian əhalisi də vardı. Amma nə oldu? Təbii ki, biz Suriyada baş verənləri bütünlüklə Avropa ölkələrinin boynuna yükləmək istəməzdik. Amma baş verənlərdə hamı təqsirkardır. Kimi bunları görmək istəmədiyinə, etinasızlığına görə, kimi də bu işlərdə fəal iştirakına görə təqsirkardır. Bəli, Qərb ölkələri müsəlmanları ən yaxşı halda öz ölkələrində kiçik və nəzarətdə olan dini azlıq kimi görməyə razı oldular...

Bundan o tərəfə getmədilər. İndi terrorçu dini radikallar hamını qorxudur və hətta dəhşətə gətirir. Amma yenə də sual vermək istərdik: siz onları başqa cür görmək istədinizmi?...

Bir məsələdən o birisinə keçmək olmasın. Amma bir məsələni gərəkdir ki, qeyd edək. Bu günlərdə Türkiyə Avropa Birliyindən növbəti "yox" cavabı aldı. Bircə ay, bəlkə də bundan da az müddət əvvəl Türkiyəyə qaçqın problemini nəzarətə götürmək istəyilə yollananlar belə öz vədlərini heç yada salmadılar. Fransanın əvvəlki prezidenti - N.Sarkozi Türkiyə səfər edəndən və bu ölkə ilə azacıq yaxından tanış olandan sonra demişdi ki, Türkiyənin Avropaya, Avropanın da Türkiyəyə ehtiyacı yoxdur! Amma həqiqətdə belədir, ya yox? Təbii, belə deyil. Hamımızın biri-birimizə ehtiyacımız var...

Bəzən deyirlər ki, guya Qərb ölkələri digər ölkələrə demokratiya ixrac etməyə çalışır. Amma buna yalnız ironiya etmək olar. Niyə görə? Ona görə ki, indi bəhs etdiyimiz dövlətlər digərlərinə demokratiya ixrac etməyə çalışsaydı buna yalnız sevinərdik. Onlar əksinə demokratik üsul-idarəni qısqanır və belə hesab edirlər ki, bu, yalnız xristian ölkələri üçündür...

Bəli, onlar müsəlmanları və müsəlman ölkələrini başqa cür görmək istəmirlər.

Özləri qəliblər yaradıblar. Müsəlman kimdir? Əslində avtomat tutmuş və qara paltarlı adam!.. Qəlib o qədər xoşlarına gəlib ki, müsəlman ölkələrini onun hüdudlarına qovurlar...

Şərq ölkələrinin çoxu bir vaxtlar Qərbin müstəmləkələri olublar. Qərbin bu yerlərin əhalisinə fərqli və daha mütərəqqi düşüncə tərzi aşılamaq üçün çox vaxtı olub. Amma etməyiblər. Əksinə Şərq ölkələrində despotizmi və geriliyi stimullaşdırıblar. O səbəbdən bu gün Şərqdə baş verənlərin müəllifləri həm də Qərb ölkələridir və bütün bu prosesdə adamı yalnız bircə məsələ təəssüfləndirir: yüzlərlə günahsız insan həlak olur, minlərlə insan təlaş keçirir və hərə də bir səbəb deyir. Əslində isə sadə şey baş verir: Şərq Avropanın illərlə görmək istədiyi kimi olmağa başlayıb. Min təəssüf...

YENİ MÜSAVAT
N 254 (6282) 16 noyabr 2015

**Güney Azərbaycanda noyabrın 9-da başlanılan etirazlar davam edir. 14 şəhərdə eyni vaxtda keçirilən etirazlardan bir gün sonra Təbriz, Zəncan, Mərənd Universitetlərində tələbələr yenidən ayağa qalxıblar. İran mətbuatının yaydığı məlumata görə, tələbələr plakatlarda "Haray, haray, mən türkəm!", "Azərbaycan var olsun, istəməyən kor olsun!", "Azərbaycan əyilməz, türkün beli bükülməz!" şüarları səsləndiriblər.**




# Güneydə başlanan etiraz dalğası Türkiyədə davam edir

## İrana niyə nota göndərilmədi? Həsən ağa Dəmirçi: "Türklərə qənim kəsilənlər layiqli cavabını aldı..."

Daha sonra - noyabrın 13-də Qum, Qoşaçay, Əhər şəhərlərində də etiraz aksiyaları davam edib. Bu aksiyalar da İran hakimiyyətinin təhlükəsizlik qüvvələri tərəfindən dağıdılıb. Çoxlu sayda yaralı və tutulanların olduğu bildirilir. Məlumata görə, etirazların keçirildiyi təkcə 5 gün ərzində 129 nəfər milli fəal həbs olunub. Onların arasında qadınlar da var.

Etirazlara dəstək olaraq Türkiyənin bir neçə şəhərlərində, o cümlədən Ankarada, İstanbulda, Antalyada, Eskişəhərdə də aksiyalar keçirilib. Aksiyalarda çoxlu sayda soydaşlarımız iştirak edib. Bunun ardınca Ukrayna Azərbaycanlıları Birləşmiş Diasporu İranın Ukraynadakı fövqəladə və səlahiyyətli səfirinə İranın İRİB TV-2 kanalında yayımlanan "Fitilə" adlı televiziya verilişində azərbaycanlıların təhqir olunmasına etiraz olaraq xüsusi qutuda tualet fırçası və diş pastasını "hədiyyə" göndərib. Səfirliyə bunu "kuryer" vasitəsilə göndərən UABD fəalları bu aksiya ilə bağlı sosial video-çarx da hazırlayaraq ictimaiyyətə təqdim ediblər. Bununla da UABD fəalları sosial-ictimai aksiyaya hamını dəvət edərək dünyanın müxtəlif ölkələrində olan İran səfirliklərinə bu cür "hədiyyələr"in göndərilməsinə çağırış ediblər. Çağırışa Stokholmda yaşayan soydaşlarımız da qatılıb.

Sosial şəbəkələrdə yayılan məlumatlara görə isə, bu günlərdə İranın Türkiyədəki səfirliyinə də içərisində tualet fırçası və diş pastası olan "hədiyyə" göndəriləcək. Hədiyyənin içərisində "İran Təbrizin bir yumruğu ilə dağılacaq", "Qalx ayağa türk oğlu" sözləri yazılmış kağız olacağı bildirilir. Qeyd edək ki, bəzi İran mətbuatında etirazlara kənar müdaxilələrin olduğu iddia edilir.

Təbriz şəhərindən tanınmış musiqiçi, bəstəkar, ustad Həsən ağa Dəmirçi hadisələrlə bağlı "Yeni Müsavat"a danışıb. Dəfələrlə İran hakimiyyətinin təzyiq və ittihamlarına məruz qalan ustad etirazlar zamanı türklərə düşmən kəsilənlərə layiqli cavab verildiyini deyib: "Türklərə qənim kəsilənlər dəfələrlə millətimizi təhqir ediblər. Halbuki, türklər onlarla düşmənçilik etməlidir. Çünki türklərin hökumətlərinə yiyələnən onlar olub. Bu nə birinci, nə də ki, onuncu təhqir olayı deyil. Zaman-zaman bu düşmənçilik davam edir. Bu dəfə də İran televiziyası ilə azərbaycanlı türklər təhqir edildi. Buna görə millətimiz ayağa qalxdı. Heç bir təşkilatın köməyi olmadan insanlar bir-birilərinə deyib meydanlara yığışdı. Beləcə etirazlar kütləvi şəkil aldı. Bilidiyiniz kimi etirazlar eyni vaxtda müxtəlif şəhərlərdə keçirildi. Xalq öz sözünü dedi. Etirazlarda insanlar öz hüquqlarını tələb edirdilər. Və türklərə düşmən kəsilənlər layiqincə cavabını aldılar".

Ustad Dəmirçi hazırda Təbrizdə sakitlik olduğunu bildirib.

Zəncan şəhərindən Güney Azərbaycanın tanınmış şair və rəssamı Huşəng Cəfəri keçirilən etirazlarl bu cür xatırlayıb: "Millətimizə qarşı təhqir olmuşdu. Bu, yolverilməzdir. Buna görə də çıxıb öz etirazlarımızı bildirdik. Mən özüm də etirazlarda iştirak etdim, nitq söylədim. Zəncanın düşüncəli, ziyalı şəxsləri də gəlib bizə qoşuldu. Aksiya zamanı ana dilimizdə məktəb olması ilə bağlı da şüarlar səsləndirdik. Bu cür etirazlar olmasa, təhqirlər hər keçən gün daha da artar. Hökmən bunun bir nəticəsi olacaq. Etirazlar zamanı İran məmurları gəlib bizdən üzr istədilər, bildirdilər ki, bir daha bu cür təhqirə yol verilməyəcək. Beləliklə, etirazımızı bitirdik. İştirak edən fəallardan 3 nəfər tutulub saxlanılmışdı. Lakin gedib danışdıq və onları azad etdilər. Daha sonra tutulanlar barəsində məlumatım yoxdur. Hakimiyyət orqanları əgər bir daha təhqirlərə yol verilməyəcəyinə söz versələr, bu etirazlar da olmaz".

Təbrizli milli-mədəni fəal Cəmşid Zarei də əməkdaşımıza danışıb: "İran hakimiyyəti anlamalıdır ki, bu dövlət təkmillətli deyil. Lakin İran İslam Respublikası dövründən bu günədək Azərbaycan türkləri təhqirlərə məruz qalır. Bu tendensiya 2006-cı ildə üsyana səbəb oldu. Həmin etiraz aksiyalarında çoxlu sayda insanlar yaralandı, onlarla fəal həbs edildi, bəziləri isə təzyiqlərə məruz qaldığı üçün vətəni tərk etməli oldu. Ötən həftə isə yenidən azərbaycanlı türklərinin təhqir edilməsi Güney Azərbaycanı ayağa qaldırdı. Həm etirazlar zamanı, həm də sonrakı günlərdə yenə də onlarla fəal həbs olundu. Hazırda bu proses davam etməkdədir".

Cəmşid Zarei yaxın günlərdə etirazların yenidən vüsət alacağını deyib: "Tezliklə Təbrizin "Traxtur" futbol klubunun oyunu keçiriləcək. Oyun zamanı azərbaycanlı fəallar bir daha öz etirazlarını bildirəcək, şüarlar səsləndirəcəklər. Nə qədər ki, dövlət başçısı Həsən Ruhani millətimizdən üzr istəməyəcək, İran Parlamentində türklərin bir daha təhqir edilməyəcəyinə dair qərar çıxmayacaq, bu etirazlar səngiməyəcək".

Güney Azərbaycan Milli Oyanış Hərəkatının tanınmış fəallarından olan, hazırda Türkiyədə yaşayan, "GAMAC" təşkilatının sözçüsü Məhsa Mehdili Bərzin olaylara aydınlıq gətirib. "GAMAC" sözçüsü kütləvi etirazları milli kimliyə qarşı edilən basqılardan doğan hiddətin göstəricisi adlandırıb: "İran hakimiyyət orqanları və hətta müxalifəti Güney Azərbaycan xalqının etirazlarına qarşı hər zamankı kimi eyni cəbhədə birləşib. Onlar keçirilən kütləvi etirazları sadəcə, bir proqrama qarşı olduğunu göstərməyə çalışırlar, halbuki, bu hərəkat milli kimliyimizə qarşı edilən basqılardan doğan hiddətin göstəricisidir və qaynağında fars şovinizmi dayanır. Artıq 80 ildir ki, Güney Azərbaycan xalqı sistemli şəkildə mədəniyyət, iqtisadi, ictimai-siyasi baxımından təhqirlərin və təzyiqlərin hədəfindədir. Buna rəğmən Azərbaycan xalqının milli kimliyinə olan mənəvi bağlılığı qopmayıb, əksinə daha geniş vüsət alaraq dəfələrlə güclənib. Müxtəlif şəhərlərdə eyni vaxtda keçirilən kütləvi etirazlar, səsləndirilən şüarların mahiyyəti bu faktı bir daha dünyaya sübut etdi. Məlum məsələdir ki, İran hakimiyyəti olayların bu nöqtəyə gəlib çıxmasını istəmirdi".



Həsən ağa Dəmirçi

Məhsa Mehdili milli hərəkata kənar müdaxilələrin olması fikrinə də münasibət bildirib: "Bu çox gülünc və özü-özünün ziddinə olan iddiadır. Kənar müdaxilə ilə 14 şəhərdə 10 minlərlə insan ayağa qalxırsa bu mərkəzi hakimiyyətin sonu gəldiyinə etiraf etməsidir. Güney Azərbaycanın milli hərəkatı öz xalqına bağlı olan, millətin içərisindən doğan, xarici qüvvələrin müdaxilə edə bilmədiyi hərəkatdır. Hazırda dünyanın müxtəlif ölkələrində minlərlə Güney Azərbaycanlı yaşayır. Vətəndən uzaqda olsaq da hər birimiz əsir, amma azadlığına inanan millətimizin səsi olacaq, İran hakimiyyətinin zorakılığına qarşı onları yalnız qoymayacaq, hər zaman yanlarında olacağıq".

Güney Azərbaycanda onlarla milli-mədəni fəallara vəkillik etmiş və bu fəaliyyətinə görə hazırda Almaniyada mühacir həyatı yaşayan, azərbaycanlı vəkil Nağı Mahmudi də məsələ ilə bağlı "Yeni Müsavat"a açıqlama verib. O bildirib ki, azərbaycanlı türklərə qarşı edilən təhqir və təzyiqlər hədəfli və sistemli bir prosesdir: "Fikrimcə, bu etirazlar illərlə Azərbaycanın Güneyindəki türklərinə olan qaxınc, təhqir və təzyiqlərə qarşı gözlənilən reaksiyadır. Bu təhqir və təzyiqləri hədəfli və sistemli bir proses olduğunu hesab edirəm. Çünki məlum olaylar İranın daha çox nəzarətdə olan və senzuraya məruz qalan televiziya kanalları və mətbuatı tərəfindən həyata keçirilir. Bu baxımdan bu məsələ heç də təsadüfi və ya səhvən baş verə bilməz.

Bir daha qeyd edirəm, İran televiziya və mətbuatı çox ciddi nəzarət altındadır, buna görə də hakimiyyətin düşüncə və məfkurəsinə qarşı bir söz və ya görüntünün yayımlanma imkanı yoxdur. Məsələn, 2006-cı ildə İranın "İran"adlı rəsmi qəzeti Güney Azərbaycanda yaşayan türkləri tarakana bənzədərək çox ağır şəkildə təhqir etmişdi. Həmin vaxt mən Təbrizdə məhkəmə vəkili işləyirdim. Təhqirə görə Azərbaycanın müxtəlif şəhərlərində minlərlə insan xiyabanlara axışdı. Mən də o minlərlədən biri olaraq Təbriz xiyabanlarında idim. Etirazlarda onlarla insan tutularaq həbs edildi. Habelə "Nedaye Azerabadeqan" adlı qəzet də bağlandı. Mən həm onlarla milli-mədəni fəalın, o cümlədən Həsən bəy Dəmirçinin və qeyd etdiyim qəzetin baş redaktorunun vəkili oldum. Çıxarılan məhkəmə qərarı çox qəribə və acınacaqlı oldu. Belə ki, İran qəzeti 200 min tümən (təxminən 70 manat) cərimə cəzası alaraq yenidən fəaliyyətlərinə davam etdi, lakin "Nedaye Azerabadeqan"qəzetinin lisenziyası ləğv edilərək birdəfəlik bağlanıldı və baş redaktoru həbsə məhkum edildi. İran hakimiyyəti və habelə panİranistlər elə düşünürlər ki, bu təhqir və təzyiqləri yox sanmaqla və ya onları təsadüfi və hədəfsiz göstərməklə hər şey təbii qaydasına düşəcək və hadisələr səngiyəcək. Lakin anlamaq istəmirlər ki, Azərbaycan türklərinə qarşı edilən həqarətlər günü-gündən toplanan barıt kimi bir gün üsyan bayrağına çevrilərək hakimiyyətlərini alt-üst edəcək".

Nağı Mahmudi İran mətbuat orqanlarından bəzilərinin olaylara müsbət münasibətlə yanaşdığını deyib: "İranın bəzi daxili mətbuatında və habelə İranın xaricdəki mediasında bu məsələyə geniş yer verildi. Onu da vurğulayım ki, onlardan bəziləri yazılan məqalələrdə olaylara müsbət yanaşdılar".

Bir faktı da qeyd edək ki, azərbaycanlıların təhqir olunması ilə bağlı nədənsə Azərbaycan tərəfi İrana nota göndərmədi. Politoloq Ərəstun Oruclu məsələyə öz şərhini bildirib: "Fikrimcə, bu, düzgün yanaşmadır. Əgər hansınsa nota olsaydı, İran tərəfi soydaşlarımızın xaricdən idarə olunması ilə bağlı iddialar irəli sürərdi və onlara, onların təşkilatlarına qarşı təzyiq və repressiyalara başlayardı".

Politoloq bildirdi ki, İran hakimiyyəti dövlətin tərkibində olan türk və digər xalqların maraqlarını nəzərə almadığı üçün dəfələrlə bu cür kütləvi etirazlar baş verir: "İran mediasında Azərbaycan türklərinin təhqir edilməsi, aşağılanması ilk hadisə deyil. Belə bir reaksiyanın olması onun göstəricisidir ki, İran dövlətinin tərkibində yaşayan xalqların, milli azlıqların hüquqları tapdalanır. Nəticədə bu cəmiyyətdə ciddi narazılıq qığılcımı yaradır. Və bu qığılcım televiziya verilişi sayəsində püskürdü. Nəticə də bu oldu ki, məsələ aktuallaşıb yenidən gündəmə gətirildi. İran bu olaylardan artıq özü üçün nəticə çıxarmalıdır. Bundan sonra heç bir təzyiq və təhqirin xeyri olmayacaq. Daxilində olan bütün millətlərin maraqları, onların dini, mədəni adət- ənənələri, tarixinin qorunması, inkişaf etdirilməsi nəzərə alınmalıdır. İran isə hər zaman buna qarşı müqavimət göstərir".

❑ Xalidə GƏRAY

YENİ MÜSAVAT
N 254 (6282) 16 noyabr 2015



# Eldar Mahmudov həbsə gedir - yeni xəbərlər

## Sabiq nazirin mənzillərində axtarış aparıldı; müavinlərindən biri tutuldu, digəri işdən qovuldu; Akif Çovdarov da qandallandı...

**Hər ötən gün sabiq milli təhlükəsizlik naziri Eldar Mahmudovu həbsinə yaxınlaşdırır. Artıq onun iqamətgahında və mənzillərində axtarış aparılıb. Məlumata görə, sabiq nazirin Badamdar qəsəbəsindəki şəxsi iqamətgahından 30 qutu dollar və digər xarici valyuta, həmçinin şüşə bankalar dolusu kilolarla brilyant çıxıb. Virtualaz.org yazır ki, götürülən pullar və daş-qaş Ədliyyə Nazirliyi yanında Elmi-Tədqiqat Məhkəmə Ekspertizası İnstitutuna ekspertizaya göndərilib.**

### Həbs sanksiyası verilməməsi üçün 350 min...

"MTN sistemi əsaslarına, bünövrəsinə qədər çürümüşdü. Eldar Mahmudov-Akif Çovdarov kriminal dueti milli təhlükəsizlik xidməti sistemi çərçivəsində korrupsiya piramidası qurmuşdu. MTN-də istintaq altında olan şəxsdən yalnız bir sənədin - həbs barədə sanksiyanın ləğv olunması üçün 350 min dollar rüşvət tələb edirdilər".

Bunu ölkənin tanınmış vəkillərindən biri deyib. Virtualaz.org saytı yerli vəkillər arasında qısa sorğu keçirib. İstintaq altında olan və MTN-in təcridxanasında saxlanılan şəxslərin hüquqlarını müxtəlif vaxtlarda müdafiə etmiş bütün vəkillər bir ağızdan bildiriblər ki, MTN-in İstintaq İdarəsi tərəfindən araşdırılan istənilən cinayət işini (siyasi motivli işləri çıxmaq şərtilə) Eldar Mahmudovun müəyyən etdiyi rüşvət müqabilində bağlamaq mümkün idi. Sorğuya qatılan 30-dan çox vəkilin yekun rəyinə görə, təkcə həbs qətimkan tədbiri sanksiyasının ləğvinin qiyməti orta hesabla 300-350 min dollar olub.

Belə sövdələşmələrdə vasitəçi rolunda adətən vəkillər özləri çıxış ediblər. Bundan əlavə, MTN İstintaq İdarəsinin nəzdində inanılmış vəkillərdən ibarət "xüsusi vəkillər ştatı" olub. Həbs edilən iş adamları ilə danışıqlarda vasitəçi qismində də məhz həmin vəkillər çıxış edirdi.

### "Avtomobil dünyası" və "Caspian Crystal" fəaliyyətini dayandırdı

Sabiq nazirin biznes strukturlarında da axtarışlar aparılıb.

Eldar Mahmudova məxsus "Avtomobil dünyası" maşın salonu fəaliyyətini tam dayandırıb. Badamdar qəsəbəsi Qurd Qapısı dairəsinə yaxın ərazidə yerləşən "Avtomobil dünyası" adlı obyekt 2007-ci ildən fəaliyyətə başlayıb.

Maşın salonunda qiyməti 300 minə yaxın olan avtomobillərin satışı təşkil olunurdu. Avtosalon "Saba Crash" adı altında fəaliyyətə başlayıb. Bir müddət keçdikdən sonra isə "Crystal", son günlərə qədər isə "Avtomobil dünyası" adı altında işləyirdi. Obyekt təkcə avtomobil satışı ilə kifayətlənmirdi. Belə ki, onun alt mərtəbəsində bahalı içki brendlərinin topdansatış mərkəzi olan "Caspian Crystal" dükanı da müştərilərə xidmət göstərib.

### Çovdarovun həbs xəbəri - rəsmi təsdiq yoxdur

Eldar Mahmudovun mənzillərində və biznes strukturlarında axtarış aparılarkən istintaqçılar parallel olaraq MTN-in Energetika və Nəqliyyat Sahələrində Təhlükəsizlik Baş İdarəsinin sabiq rəisi, general-mayor Akif Çovdarovun evində və bağında axtarış aparıblar. A.Çovdarovun oğlunun, kürəkəninin və digər yaxın qohumlarının evlərində də axtarış aparılıb.




Belə məlumatlar da var ki, indiyədək həbs olunan MTN əməkdaşlarının əksəriyyəti qeyri-qanuni göstərişlərin bir çoxunu həm də birbaşa general Çovdarovdan aldıqları haqda ifadələr veriblər və onun həbsi üçün kifayət qədər dəlil-sübut toplanıb.

Baş Prokurorluğun Ağır Cinayətlər üzrə Baş İstintaq İdarəsinə aparılan Akif Çovdarov 4 saat sorğu-sual edilib. İddiaya görə, ifadəsi alınan A.Çovdarov Nərimanov Rayonundakı Müvəqqəti Saxlama Məntəqəsinə aparılıb. A.Çovdarovun hələlik konkret hansı cinayət üzrə təqsirləndirildiyi və hansı işlə bağlı ifadə verdiyi məlum deyil.

Qeyd edək ki, A.Çovdarov oktyabrın 17-də prezident sərəncamı ilə işdən çıxarılan sabiq MTN rəhbəri Eldar Mahmudovun "sağ əli və kassiri" sayılırdı. Məlumatlara görə, onun MTN-də əsas vəzifəsi iş adamlarını soymaq olub. Rüşvət tələb edilərək təhdid edilən həmin iş adamları da Baş Prokurorluğa və Prezident Administrasiyasına şikayətlərində əsas fiqur kimi məhz Akif Çovdarovun adını çəkib.

### Hilal Əsədov da getdi, bəs...

Eldar Mahmudovla Akif Çovdarovun mənzillərində axtarışlar aparıldığı saatlarda saatlarda mətbuatda milli təhlükəsizlik nazirinin müavini, general-mayor Hilal Əsədovun da vəzifəsindən qovulduğu xəbəri yayıldı. Xəbərlər prezident sərəncamının yayılması ilə rəsmən təsdiqini tapsa da, hələlik H.Əsədovun istintaqa cəlb edilməsi haqda xəbər yoxdur. Oktyabrın 17-də E.Mahmudov tutduğu postdan uzaqlaşdırılandan sonra H.Əsədov MTN-dəki iş yerinə ciddi nəzarət altında aparılıb-gətirilsə də, onun istintaqdan kənarda qalacağı haqda məlumatlar vardı. Bu məlumatları onun MDB xüsusi xidmət orqanları rəhbərlərinin Rusiya prezidenti Vladimir Putinlə görüşündə Azərbaycanı təmsil etməsi faktı bir qədər də gücləndirmişdi. Amma belə görünür ki, Eldar Mahmudovun MTN-ə cəlb etdiyi bütün kadrlar "təmizlənəcək". Hazırda digər dövlət qurumlarında sabiq nazirin yerləşdirdiyi bütün kadrların istisnasız olaraq tutduqları postlardan uzaqlaşdırılması, istintaqa cəlb olunması prosesi gedir.

### Eldar Mahmudovun yeznəsi AzTV-dən çıxarıldı

Bu arada AzTV-nin "Mədəniyyət" telekanalının direktor müavini Nadir Axundov tutduğu vəzifədən azad edilib.

N.Axundov Eldar Mahmudovun yeznəsidir.

### Mahmudovun XİN-də işləyən qohumları da işdən qovulacaq

Gələn məlumatlar onu deməyə əsas verir ki, Eldar Mahmudov 11 illik nazirliyi dövründə MTN-ə 80-dən çox qohumunu və yaxınını yerləşdirməklə kifayətlənməyib. Bütün dövlət orqanlarında, nazirliklərdə, komitələrdə, məhkəmələrdə onun yaxın qohumlarına vəzifə verilib. Əlbəttə ki, bütün bu vəzifələr birbaşa olaraq E.Mahmudovun tapşırığı əsasında onun istədiyi şəxslərə verilib. Redaksiyamıza daxil olan məlumata görə, hazırda Xarici İşlər Nazirliyində də araşdırma aparılır. Nazirliyə qeyri-rəsmi olaraq E.Mahmudovun tapşırığı ilə işə götürülmüş şəxslərin siyahısının istintaqa təqdim olunması tapşırılıb. E.Mahmudovun bacısı Elmira Mahmudovanın XİN-in Konsulluq İdarəsindəki müşavir vəzifəsindən azad ediləcəyi haqda məlumat da var.

Qeyd olunur ki, Azərbaycanın Qars şəhərindəki baş konsulu Ayxan Süleymanov hazırda "MTN işi" ilə paralel araşdırılan "Rabitəçilərin işi" üzrə həbsə alınmış Bakı Telefon Rabitəsi İstehsalat Birliyininin rəisi Beytulla Hüseynovun qaynıdır.

### İttiham üçün ifadələr alınır

"Yeni Müsavat"a daxil olan məlumata görə, "MTN işi" üzrə saxlanılanlardan bir çoxu sabiq nazirin onlara qanunsuz göstərişlər verdiyini dolayısı ilə təsdiq edən ifadələr veriblər. Həmin ifadələrin dəlil və sübutlarla bərkidilməsi prosesi gedir. Gələn məlumatlardan belə anlaşılır ki, sabiq nazir yaxın günlərdə istintaqçılarla üz-üzə qalacaq.

### Bakı İstintaq Təcridxanasında "qonaqlara" xüsusi yer hazırlanır

"MTN işi" üzrə həbslərin kütləvi xarakter aldığı bir vaxtda Bakı İstintaq Təcridxanasında sıxlıq olması haqda xəbər var. Qeyd olunur ki, "MTN işi" üzrə tutulanların digər saxlanılan şəxslərlə bir yerdə saxlanılması məqsədəmüvafiq hesab edilmir. Buna görə də təcridxanadakı korpuslardan birində hazırlıq işləri aparılır. Qeyd olunur ki, "MTN işi" üzrə tutulanlar Penitensiar Xidmətin əməkdaşlarının nəzarəti altına verilməyəcək. Sabiq MTN-çilər Xüsusi Dövlət Mühafizə Xidməti əməkdaşlarının nəzarəti altında saxlanacaqlar. Bu yolla iş üzrə tutulmuş şəxslərin istintaqın işinə törədə biləcəkləri əngəllərin aradan qaldırılması nəzərdə tutulduğu bildirilir.

**P.S.** *Qəzet çapa gedərkən məlum oldu ki, məhkəmə Akif Çovdarov haqda 3 aylıq həbs-qətimkan tədbiri seçib.*

❑ **E.HÜSEYNOV**

# Sabiq nazirin yaxın qohumu radikal dindar imiş

## MTN şefinin "Sumqayıt camaatı"nın liderləri ilə əlaqələri üzə çıxıb



**Sabiq milli təhlükəsizlik naziri Eldar Mahmudov işdən çıxarılmasından sonra yerli mediada MTN rəhbərliyi tərəfindən yol verilən qanunsuzluqlar, cinayət hadisələri tədricən üzə çıxır. Proseslərin gedişatı göstərir ki, ifşa mərhələsi davam edəcək. Sabiq MTN rəhbərinə ittihamlar sırasında radikal dini cərəyanların ölkədə şəbəkələşməsinə göz yummaq, konkret olaraq radikal təmayüllü vəhhabilərdən xərac almaq, onlara faktiki olaraq "krişalıq" etməsi də var.**

Hələ bir neçə il əvvəl "Yeni Müsavat" xüsusi xidmət orqanlarının Yaxın Şərqdə savaşlara qatılmaq üçün gedənlərə göz yumduğunu yazmışdı. Həmin məlumatda qeyd olunurdu ki, təhlükəsizlik orqanlarındakı mənbə bir çox radikal dindarın gedəcəyi haqda məlumatlı olduqlarını, ancaq onların ölkəni tərk etməsinə göz yumulduğunu bildirmişdi. Həmin vaxt bu məlumat hökumətin radikal dindarların ölkədən getməsində maraqlı olması kimi yozulmuşdu.

Lakin jam.az saytı yazır ki, MTN rəhbərliyi radikal dindarları himayə edib, vəhhabilərin mövqelərini möhkəmləndirmək üçün onların öz aralarındakı "razborkalara" şərait yaradılıb: "Məsələn, 2013-cü ilin dekabr ayında Sumqayıtdakı "Soltan" kafesində baş vermiş 2 vəhhabi dəstəsi arasında qanlı atışma da məhz bu "razborka"nın təzahürlərindədir. Hələ həmin vaxt məsələni araşdırmağa cəhd etdiyimizdə polis orqanlarından belə bir məlumat sızdırılmışdı ki, atışmanı törədən qrup haqqında əvvəlcədən məlumat olsa da, prosesə müdaxilə etməmək göstərişi məhz MTN-dən gəlibmiş".

O da bəlli olub ki, Azərbaycanı "kafirlər diyarı" hesab edən Sumqayıtda ən radikal dini qruplardan birinə elə sabiq MTN şefi Eldar Mahmudovun yaxın qohumu başçılıq edib.

Bildirilir ki, "Sumqayıt camaatı"nın sərbəst hərəkət etməsi, dəstələr formalaşdıraraq Suriya və İraqa yola salmasına göz yumulması təsadüfi olmayıb. "Bunu təsdiq edən fakt kimi isə DİN tərəfindən ötən il keçirilmiş əməliyyatı göstərmək olar. Belə ki, həmin vaxt DİN-in keçirdiyi əməliyyat zamanı lSumqayıt camaatı»nın lideri, şəhərin baş vəhhabisi Zöhrab Şıxəliyevin yaxını, məhz sabiq milli təhlükəsizlik naziri Eldar Mahmudovun əmisi nəvəsi Yalçın Mahmudov həbs olunur. Yalçın Mahmudov Sumqayıtda vəhhabiliyin geniş təşəkkül tapması, onların sərbəst hərəkət etməsi, onların «müvafiq qurumlarla» olan problemlərinin «çözülməsinə» vasitəçilik edib".

Məlumata görə, "Soltan" kafesində baş vermiş qanlı "razborka"nın arxasında daha bir özəl məqam isə Sumqayıtdakı bəzi radikal qrupların nazirin əmisi nəvəsinə "biət" etməməsi olub. Bu səbəbdən də onları cəzalandırıblar. Həmçinin MTN-in o vaxtkı rəhbərliyi bununla digər ipə-sapa yatmayan qruplara da gözdağı verib ki, onların da başına analoji oyunu aça bilərlər. Əldə olunan məlumatlara görə, xüsusən Sumqayıtdakı vəhhabilər toxunulmaz kastaya çevrilibmiş.

Məhz bu səbəbdəndir ki, bu barədə məlumat əldə edən DİN əməliyyatlar keçirərək, ölkənin təhlükəsizliyinə təhdid olan qruplaşma üzvlərini həbs etsə də, sonradan MTN-in dəstəyi ilə onlar azadlığa buraxılır. Bu möcüzəli "xilas"ın ən bariz nümunəsi isə evində gizli toplantı keçirən, silah-sursat aşkarlanan, hüquq-mühafizə orqanları tərəfindən həbs olunan Zöhrab Şıxəliyevin 6 aydan sonra azadlığa buraxılması idi. O, MTN-in gözü qarşısında Sumqayıtda özünə villa adıyla qeyri-qanuni məscid inşa etdirmişdi. Ancaq həmin vaxt həbs olunan Zöhrab Şıxəliyev sonradan MTN-in başbilənlərinin sayəsində azadlığa çıxa bildi", deyə, saytın xəbərində bildirilir.

❑ **İnformasiya şöbəsi**

YENİ MÜSAVAT
N 254 (6282) 16 noyabr 2015



# Lazımdırsa hokkey oynayaq

Zamin HACI
zaminhaci@gmail.com

**Kədərli xəbərlərin ardı-arası kəsilmir. Otüstü hokkey üzrə komandalarımızı ləğv ediblər. Özü də ikisini birdən! Heç olmazsa qadınlar üçün komandanı saxlamaq lazım idi, dünyada Azərbaycan qadınlarının otüstü hokkey oynadığını nümayiş etdirirdik. Nə olsun komanda üzvləri saxta şəkildə milliləşdirilib pasport verilən koreyalı, çinli, pakistanlı qadınlardan ibarət idi? Çox adam bilmirdi biz Çan Çun Kon xanımı ASAN-Xidmət-in sehirli çubuğu ilə beşcə dəqiqəyə Canan Əliyevaya, Kim Donu isə Kim Məmmədovaya çevirə bilərik. Əsas komanda ruhu idi. Ona qalsa bizdə qadın ombudsman da var, heç kim, o cümlədən Kim Məmmədova onun nə işlə məşğul olduğunu ömründə öyrənə bilməzdi. Ot üstündə top qovmağa nə vardı? Bu, siyasət idi.**

Neft pulları sel kimi gəlirdi, biz hətta buz üstündə hokkey, kriket, beysbol, Amerika futbolu, sumo güləşi, yağlı güləş və sairə - dünyada olan bütün idman növləri üzrə federasiyalar qayırıb dövlətçiliyimizi tanıdırdıq. Nazir çox, federasiya çox... Hər nazirə yemləmək üçün azı 4-5 idman federasiyası verilirdi. Sonra bədbəxtçilik basdı, neft pulu azaldı. İlk həyəcan siqnalını hələ ilin əvvəlində pulsuz qalıb piket keçirən (piket dağıdan yox ha!) cüdoçular çalmışdılar. Sonra "Bakı", "İnter" futbol komandaları domino daşları kimi çökməyə başladılar. Proses davam edir. Hokkeyin ardınca hansı idmanın başını bağlayacaqlar - neft tanrısı bilir...

Vəziyyət o qədər acınacaqlı, biabırçıdır ki, yapistlər Rusiyaya yalvarıb 2019-cu ildə 2-ci Avropa Oyunlarını keçirməyi xahiş edibmişlər. Bundan qabaq isə Niderlanda yalvarmışdılar. Amma hər iki dövlət bu xahişi rədd edib, deyiblər bizim hansısa dövlətlərin idmançılarına yedirtməyə müftə pullarımız yoxdur, biz Azərbaycan kimi olmaq istəmirik. Yeri gəlmişkən, rusların açıqladığı biabırçılıq başqa bir faktı da ortaya qoyub: yapistlər bu gülünc oyunları Azərbaycan büdcəsinə sоxuşduranda, xərcləri xalqımızın belinə şəlləyəndə demişdilər yarış hər 2 ildən bir keçiriləcəkdir. İndi isə 2019-cu ildən danışılır. Demək 4 il uzatmağa məcbur olublar. Hətta bu halda da "qaz" tapılmayıb.

Hərçənd, dilxor olmayaq, bəlkə elə 2-ci Avropa Oyunları da Azərbaycanda olsun? Bu yarışı bir növ, himayəmizə götürək, hər 2-4 ildən bir minlərlə xarici idmançılar qonaq gəlsin, bizim hesabımıza yeyib-içib əylənib, dombalaq aşıb getsinlər? Məqsəd respublikamızı, həqiqətlərimizi, Qarabağ dərdimizi, 3 Pinqvin binasını, bulvardakı kaktusları, toylar kralı Manaf müəllimin muğam festivalında möhtəşəm çıxışını, Namiq Qaraçuxurlunu, Aqşin Fatehi, Habil müəllimin kamanını, Anar müəllimin qəlyanını dünyaya tanıtdırmaqdırsa, niyə bunu dəfələrlə təkrar etməyək? Bunun nəyi pisdir?

Bir az yarışın büdcəsi məsələsi problem olar, ancaq o da indiki dövlətçilik siyasətimiz baxımından çox asan, həmçinin, ASAN həll edilə bilən bir şeydir. Hər yarış qabağı bir-iki nazir, 3-4 bankir tutub soysan onların pulu ilə hətta yay olimpiadası qayırmaq mümkündür. İşləmək lazımdır.

Söz düşmüşkən, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin şefi Əli müəllimi bayıra atıblar, nədənsə hamı bu idarənin adının birinci hissəsinə diqqət çəkir. Onu dinləyiblər, bundan pul alıblar və s. Bəs yüksək texnologiyalar? Yoldaşlar, bu da önəmli məsələdir. Azərbaycanda yüksək texnologiyalar sahəsində böyük işlər görülmüşdür. Məsələn, şəxsiyyət vəsiqəsi dəyişdirmək əvvəlki kimi 30 ilə, 300 sənədə, 500 manata, 600 dava-dalaşa, 700 söyüşməyə, 800 didişməyə başa gəlmirdi. Yaxud, yüksək texnologiyalı aftafa və sabunlar düzəldilib milli yaltaqların istifadəsinə verilmişdi. Ələtlə Hacıqabul arasında dərədə isə milli "Silikon vadisi" fəaliyyət göstərirdi. Bəs indi bunların taleyi necə olacaq? Əli müəllimin yüksək texnologiyalar sahəsində də yeyintiyə qurşandığı aşkara çıxsa, biz başımıza haranın daşını salaq? Bir düzgün sahə yoxdurmu?

Sonda dövlət rəhbərliyinə bildirim ki, könüllülük əsasında, maaşsız otüstü hokkeyçi olmağa hazıram. Təki vətən yaşasın! Vətəndaşlarımızı da aktivliyə səsləyirəm. Gəlin idmana yazılaq. Vətən dardadır. Arxada stadiondur!

# Razi Nurullayevin təşkilatı AXCP kimi qeydə alınsa...

## Əli Kərimli qanadı məhkəməyə müraciət edəcək; ölkə müxalifəti hüququn yanında olacaq, yoxsa şəxsi siyasi münasibətlərin?

**Bəlli olduğu kimi, Ədliyyə Nazirliyi Azərbaycan Xalq Cəbhəsi Partiyasının Əli Kərimli qanadının sentyabrın 27-də keçirdiyi qurultayın nəticələrini tanımayıb. Qurum partiyanın sənədlərini geri göndərib. Bundan sonra Ə.Kərimli sosial şəbəkələrdə paylaşdığı statusda məhkəməyə müraciət edəcəklərini bildirib.**



Gedən proseslər AXCP-nin Razi Nurullayev qanadının partiya kimi tanınacağına dair ehtimallar yaradır. Çünki Ədliyyə Nazirliyi bu qanadın oktyabrın 18-də keçirdikləri qurultayın sənədlərini geri göndərməyib.

Rəsmi qurumun AXCP barədəki son günlərdə verdiyi qərarlar bir məsələni yenidən aktuallaşdırıb. Ölkə müxalifətinin AXCP kimi hansı qanadı tanıyacağı suallar doğurur. Əgər məhkəmələr də Əli Kərimlinin təşkilatının şikayətini qəbul etməsə, AXCP kimi Razi Nurullayevin rəhbərlik etdiyi qurumu tanısa, o zaman ölkə müxalifəti hüququn yanında olacaq, yoxsa şəxsi siyasi münasibətlər üstün tutulacaq?

Müsavat Partiyasının başqanı Arif Hacılı günlər öncə müsahibələrinin birində bəyan etmişdi ki, AXCP kimi Əli Kərimli qanadını tanıyırlar. Bu fikirlərdən sonra sosial şəbəkələr və mətbuatda Razi Nurullayevin tərəfdarları ilə Müsavat üzvləri arasında günlərlə davam edən söz savaşı baş vermişdi.

Müsavat başqanının müavini Elman Fəttah Ədliyyə Nazirliyinin qərarından asılı olmayaraq, qərarlarında qətiyyətli olduqlarını söylədi: "Həmin məsələ ilə bağlı Müsavat başqanının yazısı mətbuatda dərc olunub. Hələ o vaxt sənədlər Ədliyyə Nazirliyinə təzə göndərilmişdi. Partiyamızın qərarına görə, AXCP sentyabrın 27-də qurultayını keçirib və yeni rəhbərliyini müəyyənləşdirib. Ədliyyə Nazirliyinin qərarları Müsavat Partiyasının mövqeyinə təsir edə bilməz. Mövqeyimiz son dərəcə açıq və aydındır. AXCP konkret olaraq, sentyabrın 27-də qurultayını keçirib. Qondarma sifarişlə verilmiş qərarlar mövqeyimizi dəyişdirə bilməz".

ADP sədri Sərdar Cəlaloğlu əməkdaşlıq məsələsində qurumun tanınıb-tanınmamasının Azərbaycanda önəm kəsb etmədiyini qeyd etdi: "Partiya ilə əməkdaşlıqda rəsmi qeydiyyatdan keçmə, tanınma şərt kimi qoyulmur. Qanunlarımızda bu belədir. Kim hansı partiya ilə əməkdaşlıq etmək istəsə edəcək. "Azadlıq 2015" bloku yaradılmışdı. Orada qeydiyyatdan keçmiş və ya keçməmiş partiyalar birlikdə blok yaradıblar, əməkdaşlıq edirlər. Bu baxımdan Ədliyyə Nazirliyi və məhkəmələrin qərarları partiyaların əlaqələrinə təsir edə bilməz. Sadəcə bir partiyanın qeydiyyatdan keçməsi, həmin qurumun dövlətlə əlaqələrinə aiddir. Partiyanın qeydiyyatdan keçməsi və ya keçməməsi fəaliyyətinə təsir edə bilməz. Açığı inanmıram ki, Razi Nurullayevin rəhbərlik etdiyi AXCP tanınsın. Çünki hər bir partiyanın qurultayı nizamnamə əsasında keçirilir. Əgər kənarda qurultay keçirib, özünü partiyanın varisi elan edirsənsə, bu qeyri-qanuni hərəkətdir. Razi Nurullayev AXCP-nin keçirdiyi qurultayın nəticələri ilə bağlı nazirlikdə olan sənədə istinad etməli idi. Əgər bu doğrudursa, o zaman günü bu gün YAP-ı öz əlimə ala bilərəm. ADP-də iclas keçirib, qərar qəbul edərəm ki, YAP-ın sahibi mənəm. Amma Ədliyyə Nazirliyi qərarımızı qəbul etməz. Əməkdaşlıq ideoloji baxımdan olur. Bu gün Ədliyyə Nazirliyində qeydiyyatdan keçmiş elə partiyalar var ki, onların var-yoxluğundan belə xəbərim yoxdur, rəhbərlərini tanımıram. Yəni qeydiyyatdan keçməyin önəmi yoxdur".

Ümid Partiyasının sədr müavini Ənvər Ağazadə bildirdi ki, düzgün məhkəmə olan ölkədə hüquqi qərarlara əməl edilir: "Partiya olaraq, daim hüququn tərəfində olmağın tərəfdarıyıq. Təəssüflər olsun ki, ölkəmizdə məhkəmələr çox vaxt ədalətsiz qərarlar verirlər. Bu məsələdə konkret istəyəcəyimiz bir şey yoxdur. Yaxşı olardı ki, Razi Nurullayev təşkilatın adına başqa bir ad qoyardı. İndiyə qədər belə hallar olub. Yenidən bu cür oyunlara getmək doğru deyil. Açığı AXCP-də hansı tərəfin bu iddianın təmin olunmasına haqqı çatdığını bilmirəm. Amma görünən odur ki, bütün bunlar AXCP-yə qarşı olan oyunlardır".

❑ Cavanşir ABBASLI

# "Azərbaycanlıları təhqir edən verilişin aparıcısı azərbaycanlıdır"

## İran səfiri: "Mən özüm də bu proqramdan razı deyiləm..."

**İranın Azərbaycandakı səfiri Möhsün Pakayin ANS telekanalına eksklüziv müsahibə verib. Səfir İran və Azərbaycanın arasındakı münasibətlərdən, Xəzər dənizinin statusundan söz açıb və son günlər Cənubi Azərbaycanda baş verən etiraz aksiyalarına münasibət bildirib.**

Möhsün Pakayin iki ölkə arasında əlaqələrin çox yaxşı inkişaf etdiyini vurğulayıb və buna sübut kimi dekabr ayında iki ölkənin müştərək iqtisadi komissiyasının iştirakı ilə iclasın keçiriləcəyini bildirib: "Bir çox sahələr üzrə, o cümlədən bank, energetika, tranzit ticarət, turizm, əkinçilik, baytarlıq, gigiyena sahələri üzrə müzakirələr aparılacaq. Bəzi sahələrdə sənədlərin imzalanacağı gözlənilir. Nəzərə alsaq ki, bu iclas İrana qarşı sanksiyaların ləğvi ilə eyni vaxta düşür, mənim fikrimcə, iki ölkə arasında bu, müsbət bir addım olacaq".



Möhsün Pakayin

Diplomat həmçinin, Xəzər dənizində də iki ölkənin əlaqələrini yüksək qiymətləndirib. Onun sözlərinə görə, dənizin hüquqi statusu üzrə İran və Azərbaycanın baxışları eynidir. "Bakı ilə Tehran arasında müəyyən yataqların işlənməsi barədə danışıqlar gedir. Hər iki ölkənin mütəxəssisləri əməkdaşlığın səviyyəsini araşdırır və ümid edirik ki, müsbət nəticə əldə olunacaq. Sizə mühüm xəbərim 20 noyabr tarixində OPEK-in qaz ixracatı üzrə iclas keçiriləcəyi ilə bağlıdır. 24 noyabrda isə dövlət rəsmiləri burada olacaq. 7 ölkənin dövlət başçısı iştirakını təsdiqləyib. Rusiya, Türkmənistan, Boliviya, İraq, Qvineya, Venesuela prezidentlərinin iştirak edəcəyi toplantıya Azərbaycan rəsmilərinin də qatılacağına ümidvarıq" - deyib səfir.

Son günlər Cənubi Azərbaycanda vəziyyətin gərginləşməsinə səbəb olan "Fitilə-ha" televiziya proqramı ilə əlaqədar danışan səfir bu proqramın İranda artıq 10 ildir ki, nümayiş olunduğunu və çoxları tərəfindən sevildiyini deyib: "Təəssüflər olsun, ki, son proqramda azərbaycanlılara toxunan bir yumordan istifadə olunub. Mən özüm də farsdilli olaraq bu proqramdan razı deyiləm və bu hadisədən narahatlıq keçirdim. Orda istifadə olunan sözlər uşaqlar üçün münasib deyil. Təkcə İran azərbaycanlıları deyil, fars xalqı da bunu tənqid edir. Həqiqət bundan ibarətdir ki, bu, bilərəkdən baş verməyib. Proqramın aparıcısı da azərbaycanlıdır və proqramın sonunda üzrxahlıq edib. İran televiziya proqramları şəbəkəsi azərbaycanlılardan üzr istəyib və proqramı dayandırıb. Sadəcə müəyyən yanlışlıq olub və bu, hər yerdə ola bilər... Bu, İranın daxili işidir və heç bir ölkəyə bunun dəxli yoxdur. Biz sevinirik ki, Azərbaycanın dövlət rəsmiləri düzgün və ədalətli mövqe nümayiş etdirdi. İki ölkənin əlaqələrinə mənfi təsir edəcək hadisələrin təkrarlanmayacağına ümid edirik".

# Türkiyə qlobal siyasətin episentrində

**Noyabrın 15-də Türkiyənin kurort bölgəsi Antalyada (Bələk) "Böyük iyirmiliy"ə (G 20) daxil olan dövlətlərin sayca 10-cu sammiti öz işinə başlayıb. Dünyanın iqtisadi cəhətdən inkişaf eləmiş 19 ölkəsini və Avropa Birliyini birləşdirən G20 formatında zirvə toplantısına qardaş ölkə ilk dəfədir ki, ev sahibliyi edir.**

# Dünya liderləri Antalyaya toplaşdı - Azərbaycan da diqqətdə...

## Türkiyənin ev sahibliyi elədiyi G20 sammiti misli görünməmiş təhlükəsizlik tədbirləri altında işinə başladı; Ərdoğan-Obama görüşü 1 saat çəkdi; mötəbər tədbirə ölkəmizin də xüsusi qonaq qismində qatılması Bakı üçün unikal şanslar açır...









11 dövlət başçısı, 11 baş nazir və Avropa Birliyinin 2 liderinin iştirak elədiyi zirvəyə 500-ə yaxın iş adamı da daxil olmaqla, ümumilikdə 13 min nəfər qatılıb. Fransa prezidenti şənbə günü Parisdə törədilən terror aktları, Argentina prezidenti isə seçkilər səbəbindən Türkiyəyə gəlməyib.

Toplantını 3 500 KİV nümayəndəsi izləyir. Sammitlə əlaqədar misli görünməmiş təhlükəsizlik tədbirləri həyata keçirilib. Bələk bölgəsi "təhlükəsiz ərazi" elan edilib. Liderlərin təhlükəsizliyini 11 mini polis olmaqla, 12 min nəfərlik heyət və jandarma qüvvələri qoruyur. Bölgə administrasiyası tərəfindən noyabrın 9-dan 18-dək hər hansı mitinq, nümayiş, yürüş, tətil, ictimai və ya etiraz aksiyalarının keçirilməsinə qadağa qoyulub. Yerli mətbuatın məlumatına görə, sammitə hazırlıq işlərinə 100 milyon dollardan çox vəsait sərf edilib.

***

G20-yə Argentina, Avstraliya, Braziliya, Böyük Britaniya, Almaniya, Hindistan, İndoneziya, İtaliya, Kanada, Çin, Meksika, Rusiya, Səudiyyə Ərəbistanı, ABŞ, Türkiyə, Fransa, CAR, Cənubi Koreya, Yaponiya və Avropa Birliyi daxildir. Dünya sənayesinin 85, ümumi milli məhsulun 90, dünya ticarətinin 80, dünya əhalisinin isə 65 faizi G2O ölkələrinin payına düşür. BMT baş katibi Pan Gi Munun, Dünya Bankı, ÜTT, BVF kimi digər beynəlxalq təşkilatların nümayəndələrinin də qatıldığı zirvə çərçivəsində 7 böyük toplantı keçiriləcək. Dünyanın iqtisadi baxımdan ən qüdrətli ölkələrinin, aparıcı maliyyə qurumlarının rəhbərləri bir araya gələrək qlobal proseslərin və problemlərin müzakirəsinə başlayıblar.

Əsas diqqət iqtisadiyyatın mövcud durumu, beynəlxalq maliyyə sistemi, böhran tendensiyası və onun qarşısının alınması, enerji təhlükəsizliyi, işsizlik kimi sosial-iqtisadi mövzulara yönələcək. Eyni zamanda dünya liderləri digər qlobal problemlərin - qanlı münaqişə ocaqları, xüsusən Yaxın Şərqdə yaranmış vəziyyət, miqrasiya problemi, beynəlxalq terror (İŞİD) təhlükəsi və onunla mübarizə yollarını müzakirə edəcəklər.

Toplantıda 5 çərçivə sazişinin də imzalanması gözlənilir. Ali toplantının sonunda "Antalya bəyannaməsi" qəbul ediləcək. Onu da qeyd edək ki, Parisdəki terror hücumları ilə əlaqədar sammitin proqramında iştirakçılar üçün nəzərdə tutulmuş konsert və əyləncəli tədbirlər ləğv edilib.

***

Türkiyə tədbirə ev sahibliyi eləməklə yanaşı, yaxın bir ildə G20-yə koordinatorluq edəcək. Qaydaya görə, sammitə təşkilatçılıq edən ölkə dost bildiyi istənilən 4 ölkəni ali toplantıya xüsusi qonaq statusunda dəvət edə bilər. Türkiyə prezidenti bu xüsusda azərbaycanlı həmkarı İlham Əliyevi və Sinqapur prezidentini Antalyaya dəvət edib. Üstəlik, sammitdən qabaq o da bəlli olub ki, qardaş ölkə Azərbaycanın iştirakına xüsusi önəm verir.

"Azərbaycanın G20 sammitində iştirakı Türkiyə üçün xüsusi əhəmiyyət kəsb edir". Bunu Türkiyə Prezident Administrasiyasındakı mənbə bildirib. Mənbə bildirib ki, Azərbaycan G20-yə böyük töhfə verə bilər: "Azərbaycan hazırda regionun ən inkişaf etmiş ölkələrindən biridir".

Məlumata əsasən, Ankara G20-də sədrliyi dövründə iştirakçı ölkələrin diqqətini bu təşkilata daxil olmayan dövlətlərə cəlb etmək niyyətindədir: "Sammit ərzində enerji məsələlərindən başqa, bəzi ölkələrin liderləri ilə Suriya böhranı da müzakirə ediləcək" - qaynaq qeyd edib.

Təbii ki, Azərbaycanın qonaq statusunda inkişafı ona öz əsas problemlərini bu mötəbər təşkilat çərçivəsində bir daha diqqət mərkəzinə gətirmək üçün unikal fürsət yaradır. Dünya siyasətini müəyyən edən liderlərlə iki və çoxtərəfli görüşlər belə imkanları açır. Müşahidəçilərə görə də xüsusilə də indiki həssas dönəmdə, Azərbaycanın Qərblə münasibətlərində konfrontasiyanın davam etdiyi dövrdə Bakının G 20 zirvəsində iştirakı mühüm önəm kəsb edir.

Bu xüsusda prezident İlham Əliyevin Antalyaya nə ilə getdiyi də az önəm daşımır. Səfər ərəfəsi Qərbdə adı siyasi məhbuslar siyahısının ön sırasında hallanan Arif Yunusun azad edilməsi Azərbaycanla bağlı gözləntilərə pozitiv rəng qata bilər. Üstəlik, Rusiya ilə Qərbin gərgin münasibətləri fonunda Azərbaycan prezidentinin tədbirdə iştirakının nələr vəd etdiyi də maraqlı suallardan sayılır.

Sammitin işində ekspert kimi iştirak dəvəti alan iqtisadçı Vüqar Bayramova görə isə, hazırkı məqamda regional məsələlərin müzakirəsində Azərbaycanın mövqeyinin öyrənilməsi və təqdim edilməsi çox vacibdir. "Prezident İlham Əliyev Azərbaycanın mövcud potensialı, rəqabət qabiliyyətliliyi ilə yanaşı, Qarabağ problemi ilə bağlı mühüm həqiqətləri dünya gündəminə daşımaq imkanı əldə edəcək. Bu baxımından sammitin Azərbaycan üçün əhəmiyyətini xüsusilə qeyd etmək olar" - deyib o.

***

Türkiyəyə ezam edilmiş əməkdaşımızın verdiyi məlumata görə, Türkiyə prezidenti Ərdoğan ölkə liderlərini bir-bir qəbul edib və salamlayıb. Sammitin açılış günü onun və xanımı Əminə Ərdoğanın adından dövlət və hökumət başçılarının, beynəlxalq təşkilatların rəhbərlərinin və onların xanımlarının şərəfinə nahar verilib. İlham Əliyev, xanımı Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva naharda iştirak ediblər.

Bir qədər sonra Ərdoğan ABŞ prezidenti Barak Obama ilə görüşüb. Görüş bir saat çəkib və ona gözləniləndən də artıq rəsmilər qatılıb. CNN Türkün xəbərinə görə, G20 zirvəsində bu cür görüşlərdə xarici işlər naziri kimi bir və ya iki rəsmi şəxs iştirak edir. Obama-Ərdoğan görüşünə isə Milli İstihbarat Təşkilatının məsləhətçisi və bəzi millət vəkilləri də daxil olmaqla, böyük bir heyət qatılıb. Türkiyə ilə ABŞ arasında belə geniş tərkibdə görüş üç il əvvəl Ağ Evdə baş tutub.

"G20 zirvəsində beynəlxalq terrorizmə qarşı mövqeyimizi çox kəskin və dəqiq ifadə edəcəyimizə inanıram". Bunu görüşündən sonra mətbuata birgə bəyanatla çıxış edən Ərdoğan deyib. O, Obama ilə Suriya məsələsini müzakirə etdiklərini söyləyib: "Suriyada İŞİD-lə mübarizə ilə bağlı müzakirələrimiz oldu. Koalisiya güclərinin bundan sonra atacağı addımları da dəyərləndirdik. Strateji tərəfdaş olaraq bundan sonra da dünyada sülhün bərqərar olması üçün əməkdaşlığımızı davam etdirməyə qərarlıyıq".

Ərdoğanın sözlərinə görə, Parisdə, Ankarada istənilən yerdə baş verən terror hadisəsi bu təhlükənin kollektiv xarakter daşıdığını və hamıya aid olduğunu sübut edir: "Biz bu toplantıda terrorizmə qarşı qəti mövqeyimizi nümayiş etdirəcəyik". Bu açıqlama Obama və Ərdoğanın terrorizmlə bağlı verdiyi birgə bəyanat kimi qiymətləndirilir.

Obama isə bildirib ki, Ankaradakı terror hadisəsində olduğu kimi, Fransadakı terror da günahsız insanları hədəf alıb: "Bu, bütün insanlığa qarşı hücumdur". Onun sözlərinə görə, Türkiyə həm İraq, həm də Suriyada İŞİD-lə mübarizədə əhəmiyyətli tərəfdaş olub: "Hazırda da Suriyadakı fəlakətli mənzərəni aradan qaldırmaq üçün əməkdaşlığa davam edir". Amerika lideri əlavə edib ki, Ərdoğanla Türkiyə Suriya sərhədində İŞİD təhlükəsi ilə necə mübarizə aparılacağını da müzakirə ediblər. O, Türkiyənin 2 milyon qaçqına sahib çıxdığını da diqqətə çatdırıb: "ABŞ da suriyalılara insani yardım göndərməyə öncüllük edən ölkələrdən biridir. Digər ölkələrin də bu yöndə nələr edə biləcəyini danışdıq".

***

"Bütün dünyanın səylərini birləşdirməklə terror təhlükəsinin öhdəsindən gəlmək və qaçqınlara kömək etmək olar". Bunu isə Antalyada BRİKS ölkələri liderlərinin qeyri-formal görüşündə Rusiya prezidenti Vladimir Putin bəyan edib. "Əlbəttə ki, bu, BMT-nin nizamnaməsi ilə uyğun olmalıdır. Biz beynəlxalq normalara söykənərək, suveren hüquqlara və hər bir dövlətin qanuni maraqlarına hörmət edərək, bu mübarizəni aparmalıyıq", - deyə o əlavə edib. Putin sammit çərçivəsində Barak Obama ilə ayaqüstü görüşüb. İki lider rəsmi şəkilçəkdirmə mərasimindən əvvəl bir neçə kəlmə kəsiblər.

Konfrans zalında çıxış edən BMT-nin Baş katibi Pan Gi Munun çıxışı da əsasən Suriya ətrafındakı vəziyyət, dünyanın qaynar nöqtələrindəki durum, terror hadisələri və s.-lə bağlı olub. O, Fransadakı terror hadisələrini pisləyib. Lakin əfsus ki, "dünyanın qaynar nöqtələri"ndən biri kimi Dağlıq Qarabağ və erməni işğalından söz açmayıb.

Daha sonra liderlərin zirvə toplantısı Parisdəki son terror aktları qurbanlarının xatirəsi 1 dəqiqəlik sükutla yad edilməklə öz işinə başlayıb.

Bu gün Ərdoğan sammitin yekununa həsr edilən mətbuat konfransı keçirəcək. Nahardan sonra sammitin bəyannaməsi açıqlanacaq.

❑ **Siyasət şöbəsi**

YENİ MÜSAVAT
N 254 (6282) 16 noyabr 2015

**Əfqanıstan müharibəsi veteranı Fərman Xeyrulla oğlu Məmmədov prezident İlham Əliyevə müraciət ünvanlayıb. Surəti redaksiyamıza göndərilən müraciətdə şikayətçi Milli Məclisin deputatı Elmira Axundova və onun oğlu Həbib Axundov tərəfindən aldadılaraq məhrumiyyətlərə düçar edilən onlarla şəxsdən biri olduğunu yazır:**

# Müharibə veteranı deputatın əməllərindən prezidentə yazdı

## Fərman Məmmədov Elmira Axundova və oğlunun fəaliyyətinin yoxlanmasını istəyir

"Olar-olmazı əllərindən çıxarılaraq müflis edilmiş və bu səbəbdən Sizə müraciət imzalayan onlarla şəxsdən biriyəm. Mən Əfqanıstan müharibəsinin od-alovundan keçmiş, çox çətinliklər görmüş bir əsgər kimi bəzi məmurların və onların övladlarının müstəqil dövlətçiliyimizə, qanunlarımıza, insanlığa olan aşkar hörmətsizliklərini başa düşməkdə acizəm. Bu gün Azərbaycan dövlətində yaşayan insanın hərtərəfli inkişafı üçün hər cür şərait vardır. Məmurlar və övladları cəmiyyətdə davranışları ilə nümunə olmalıdırlar, heç kimə xüsusi imtiyaz verilməyib. Bu sözləri möhtərəm cənab prezident öz çıxışlarınızda dəfələrlə yüksək tribunalardan bildirmisiniz. Sizin tapşırıqlarınızı qanun kimi qəbul edirəm. Çox təəssüf edirəm ki, görülən tədbirlərə, edilən xəbərdarlıqlara baxmayaraq hələ də ləyaqətsiz, bəzən də cinayətkar davranışları və əməlləri ilə cəmiyyətə aşkar hörmətsizlik edərək meydan oxuyan, maddi cəhətdən imkansızları, özlərinə nisbətən zəifləri, arxasızları məmur valideynlərinə arxalanaraq əzənlər az deyildir".

Müraciət müəllifi daha sonra yazır ki, Həbib Axundov tərəfindən aldadılaraq son qəpikləri əllərindən alınıb: "Borc girdabına və oradan da həyatın dibinə yuvarlanmışıq. Bu işdə hamımızın çox hörmət etdiyi, arxalandığı, güvəndiyi, dövlətçiliyimizin dönməz dayağı olduğunu dəfələrlə sübut etmiş polis orqanının bəzi əməkdaşlarının da həmin şəxslə əlbirliyi, ona yardımı və vasitəçiliyi insanda haqlı təəccüb və təəssüf doğurur. Onlarla insanı aldadıb həyatlarını zəhərə döndərən, yeganə oğlu Həbib Axundovu cəmiyyət üçün xeyirli övlad kimi yetişdirə və normal ailə tərbiyəsi verə bilməyən Elmira Axundovanın müxtəlif televiziya kanallarında gənclərə öyüd-nəsihət verməsi, problemə düçar olmuş şəxslərə yol göstərməsi və bəzən də şou üçün göz yaşları axıtması insanda ikrah hissi yaradır. Aldadılmış insanlar çarəsiz durumda və ümidsiz olaraq çıxış yolları axtardıqları halda, Həbib Axundov Londonda, Dubayda, Antalyada və dünyanın müxtəlif şəhərlərində kef məclisləri qurur, dövlət nömrə nişanları 111-lə bitən 5-6 ədəd bahalı ("Porshe", "Jeep"-Wrangler) avtomaşınlar sürür, "Port-Baku" adlanan bahalı yaşayış kompleksində anasına və özünə məxsus 370 kv. metrlik mənzildə qiyməti milyonlarla manat olan təmir apartdırır. A.Alı küçəsi 45 ünvanında 5 mərtəbəli dəbdəbəli qeyri-yaşayış sahəsinin inşasını tamamlatdırır. Dövlət Gömrük Komitəsində aylıq əmək haqqı 600 manat təşkil edən bu şəxs





hansı vəsait hesabına dəyəri milyonlarla ölçülən bu işləri görə bilir?"

Müharibə veteranı deputat oğlunun işdə adı keçən şəxsi ölkədən çıxardığını bildirir: "Elmira Axundovanın xeyir-duası ilə "fəaliyyət" göstərmiş oğlu Həbib Axundov cəzasızlıq mühitində yaşayacağını zənn edir. Toruna saldığı Elnur İbrahimovu çirkin məqsədləri üçün tam istifadə etdikdən sonra şou düzəldərək onu Gürcüstan vasitəsilə Rusiyaya yola salan Həbib Axundov bütün cinayətləri Elnur İbrahimovun üzərinə yönəltməklə sudan quru çıxdığını düşünür.

Möhtərəm cənab Prezident!

Elmira Axundovanın Müdafiə Nazirliyinin ərzaq, geyim və əşya tenderlərində tutduğu qulluq mövqeyindən sui-istifadə etməklə müxtəlif fiziki və hüquqi şəxsləri müəyyən haqq (şəriklik) müqabilində qalib elan etdirməsi hesab edirəm ki, dövləti cinayətdən başqa bir şey deyildir. Elmira Axundova bu cür işbazlığı nəinki dövlətimizin və şəxsən Sizin Ali Baş Komandan kimi daim qayğı və nəzarətdə saxladığınız, həddindən artıq həyati sahə olan Müdafiə Nazirliyində, eləcə də əlillərin və müvəqqəti işsizlərin ümid yeri olan, yenə də əhalinin aztəminatlı hissəsinin sosial problemlərinin həlli ilə məşğul olan Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində də davam etdirməsi nəticəsində dövlət büdcəsinin 100 minlərlə manat vəsaiti talan edilib".

Müraciət müəllifi E.Axundovanın əmlaklarını sadalamaqla bunları deputat maaşına almaq mümkün olmadığını da diqqətə çatdırır: "Qazancı şəxsi "Audi Q7" markalı avtomaşını almağa, sürücü saxlamağa, gəlininə "Toyota-Prado" markalı avtomaşın almağa, ona da sürücü saxlamağa, Qəbələdə iki mərtəbəli, mansarlı dəbdəbəli villa tikdirməyə, Şüvələnda möhtəşəm villa almağa, Nəsimi rayonu, Nəsibbəy Yusifbəyli küçəsi 72 ünvanında 6 mərtəbəli qeyri-yaşayış sahəsi inşa etdirməyə, oğlunun dəyəri yüz minlərlə manat ölçülən bahalı maşınlarının "kreditlərini" ödəməyə, "Favorit" marketlər şəbəkəsini saxlamağa necə kifayət edir?

Bu suallara cavabın Axundovların əsl üzünü cəmiyyətə açacağına tam əminəm.

Möhtərəm cənab Prezident!

Yuxarıda qeyd etdiklərim və yazmadıqlarım barədə məndə kifayət qədər sübutlar vardır. Həmin sübutlar 500 dəqiqədən çox audioyazı olmaqla Elmira Axundovanın, oğlu Həbib Axundovun, eləcə də bu işdə əli olan digər şəxslərin danışıqlarından ibarətdir. Xahiş edirəm müraciətimi şəxsi nəzarətinizə götürməklə hərtərəfli araşdırılması və qanuni tədbirlərin görülməsi üçün müvafiq strukturlara göstəriş verəsiniz".

Müraciət müəllifi səs yazılarını da məktubuna əlavə etməklə dövlət başçısına yolladığını da qeyd edir.

❑ **E.HÜSEYNOV**

**P.S** *Yazıda adı hallanan hər kəsi dinləməyə, mövqeyini dərc etməyə hazırıq.*

# Nazirlər çıxarılır, bəs baş nazirə niyə toxunulmur?

## Natiq Miri: "Azərbaycanda bu, mümkün deyil, çünki..."

**Prezidentin sərəncamı əsasında ölkədə strateji əhəmiyyətə malik nazirliklərin rəhbərləri vəzifələrindən kənarlaşdırıldı. Son olaraq milli təhlükəsizlik naziri Eldar Mahmudov və Rabitə və İnformasiya Texnologiyaları naziri Əli Abbasovun tutduqları postdan azad edilməsi hakimiyyət daxilində gedən bir sıra gizli məqamları ortaya çıxardı.**

Bunu iqtidara yaxın olan şəxslər də təsdiq etdilər ki, gerçəkdən də son olaylar, Azərbaycan hakimiyyəti ilə yanaşı, dövlətə qarşı yönəlmiş planların da üstünü açdı. Eyni zamanda onu da qeyd edək ki, vaxtilə səhiyyə naziri Əli İnsanov, iqtisadi inkişaf naziri Fərhad Əliyev, təhsil naziri Misir Mərdənov, müdafiə naziri Səfər Əbiyev də vəzifədən azad edildikdən sonra onlarla bağlı bu kimi müxtəlif kompromatlar mətbuat səhifələrində əksini tapdı. Proseslər göstərdi ki, deməkolar ki, ölkədə ciddi nöqsansız çalışan nazirlik yoxdur.

Lakin bu qədər nazirin vəzifədən azad edilməsinə baxmayaraq, ölkənin 1996-cı ildən indiyə qədər baş naziri olan Artur Rəsizadə hələ də tutduğu postdadır. Bəs nazirləri vəzifələrindən azad edildiyi halda baş nazirə nə üçün toxunulmur?

Məsələ ilə bağlı "Yeni Müsavat"a danışan politoloq Natiq Miri bir neçə səbəb sadaladı: "İlk səbəb odur ki, ölkədə demokratik idarətetmə sistemi mövcud deyil. Nəticə



olaraq, təbii ki, hakimiyyətin qolları bilavasitə ali icra hakimiyyətinə bağlıdır. Həmçinin, bu gün qanunverici, icraedici, məhkəmə orqanları hakimiyyətin qolu kimi məhz ali icra hakimiyyətindən gələn sifarişləri, notarial qaydada təsdiq etməklə məşğuldur. Sivil və demokratik ölkələrdə isə hakimiyyət qolları bir-birinə nəzarət üçün düşünülüb. Qarşılıqlı nəzarət sxemində fəaliyyət göstərən bu orqanlar normal və funksional şəkildə fəaliyyət göstərə bilir. Azərbaycanda isə fərqli bir durum var. Ona görə də iki-üç deyil, hətta onlarla nazir müəyyən yanlışlar nəticəsində hakimiyyətdən uzaqlaşdırılsa belə, bilavasitə daha yuxarı vəzifədə olan şəxslər baş naziri vəzifədən azad etməsə, onun özünün istefa verməsi gözlənilmir. Eyni zamanda məsələ burasındadır ki, Azərbaycanda istefa ənənəsi yoxdur. Çünki Azərbaycan idarəetmə sistemində təşəbbüskarlıq deyə bir dəyər də yoxdur. Heç bir nazir və ya dövlət məmuru, yuxarıdan göstəriş almadan, xüsusi təşəbbüslə çıxış edə bilməz".

Politoloq son kadr dəyişikliklərinin idarəetmə sisteminə hansı təsiri göstərəcəyindən də danışdı: "Azərbaycanda bu cür dəyişikliklər və yeni kadr təyinatları, yaxşı olardı ki, sistemli şəkildə həyata keçiriləydi. Yəni bu, islahatlar səviyyəsində, sistematik baş verməlidir ki, nəticədə bütün sistemə təsirlər olsun. Ancaq bu gün bir insanın digəri ilə əvəzlənməsi hadisəsini görürük ki, bu da mahiyyət etibarı ilə elə də böyük dəyişikliyə rəvac verəcək olay deyil. Ona gör də hesab edirəm ki, hələ ki, Azərbaycanda ciddi mənada dəyişikliyi müşahidə edə bilmirik. Məsələ ondan ibarətdir ki, aparılan yeni təyinatlar göstərir ki, bu məsələyə yanaşma sistemli formada deyil. Hadisələr lokal çərçivələrdə həyata keçirilir. Bunun da idarəetmə sisteminə hər hansı ciddi formada təsiri olmayacaq".

❑ **Əli RAİS**

## Bakıda ana 5 günlük uşağını küçəyə atdı

**Paytaxtda yenicə doğulmuş uşağı küçəyə atıblar. Qafqazinfo-nun verdiyi xəbərə görə, hadisə Binəqədi rayonunda baş verib.**

Sulutəpə qəsəbəsində sakinlər R.Allahverdiyev küçəsindən bükülü vəziyyətdə olan atılmış 5-6 günlük oğlan uşağı tapıblar. Yeni doğulan körpə 1 saylı körpələr evinə təhvil verilib.

Faktla bağlı araşdırma aparılır.

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



Yeni MÜSAVAT
N 254 (6282) 16 noyabr 2015

**Dağlıq Qarabağ probleminin həlli yönündə daha bir itirilmiş il tarixə qovuşmaqdadır. Hərçənd bəzi ümidlər nəzəri baxımdan da olsa, hələlik qalır. Onlardan biri ilin sonunadək Azərbaycan və Ermənistan prezidentləri - İlham Əliyev və Serj Sərkisyanın görüşünün baş tutma ehtimalı ilə bağlıdır.**






# 2016 - Qarabağ formatının dəyişdirilməsi ili ola bilər

## Başa çatmaqda olan il Minsk Qrupunun ədalətsiz format kimi özünü tükətdiyini bir daha təsdiqlədi; həmsədrliyə ya neytral dövlətlər gətirilməlidir, ya da...

Hər halda ATƏT-in Minsk Qrupunun həmsədrləri bölgəyə etdikləri son səfər zamanı tərəflərin buna razılıq verdiyini bildiriblər. Ancaq görüşün harada, hansı formatda olacağı naməlum qalır. Onun nəticə verib-verməyəcəyi də eləcə.

Bəzi analitiklərə görə, "Böyük iyirmilər"in (G20) dünən Antalyada başlayan sammiti də Qarabağ danışıqlarını durğunluq dövründən çıxarmaq üçün kövrək şansların sayıla bilər, çünki ali toplantıda Minsk Qrupunun üç həmsədr dövlətinin rəhbərləri təmsil olunur və üstəlik, Azərbaycan prezidentinin öz türkiyəli həmkarı Rəcəb Tayyib Ərdoğanla yanaşı, iki və yaxud çoxtərəfli formatlarda həmsədr ölkələrin prezidentləri ilə də bir araya gəlmək imkanlarına malik olacaq. Bundan savayı, rəsmi Ankara da yaranan unikal imkanlardan Azərbaycanın əsas probleminin gündəmə daşınmasına səy göstərə bilər.

Politoloq Arzu Nağıyevə görə, G20 çərçivəsində baş tutacaq görüşlərdə Türkiyənin Azərbaycanın da təmsilçisi kimi çıxış eləməsi gözləniləndir. "Bu gün Azərbaycanın əsas problemi Qarabağ münaqişəsidir. Ona görə də problemin nizamlanması və Ermənistanla müvafiq addımların atılması istiqamətində çox güman ki, ciddi söhbətlər aparılacaq. Bu nöqteyi-nəzərdən Rusiya və Azərbaycan prezidentlərinin görüşü istisna deyil" - qeyd edib politoloq.

***

Doğrudur, G20 zirvə toplantısında gündəmdə postsovet məkanındakı etnik-ərazi münaqişələri deyil, ilk növbədə qlobal terrorla mübarizə olacaq. Lakin bu kimi önəmli toplantılarda həll olunmamış və özündə potensial müharibə təhlükəsi daşıyan həll edilməmiş, dondurulmuş münaqişələrə də bir qayda olaraq hansısa formada diqqət ayrılır. Nəhayət, ali toplantının yekun bəyannaməsi olacaq ki, orada da bu kimi konfliktlərin həllinə ümumi baxışlar əksini tapa bilər.

Lakin bütün hallarda bir həqiqət artıq ortadadır ki, 23 ildir Minsk Qrupu formatında Dağlıq Qarabağ münaqişəsinə dair aparılan danışıqlar səmərəsiz olub, bu format faktiki, özünü tükədib. Əsas səbəb haqda kifayət qədər yazılıb. Söhbət vasitəçilərin BMT Təhlükəsizlik Şurasının Dağlıq Qarabağa dair məlum qətnamələrini, işğal faktını və işğalçını qulaqardı eləməsi, buna paralel, Ermənistana gizli rəğbət bəsləməsindən gedir.

Təbii ki, problemin həllində Rusiyanın bəlli səbəblərdən maraqlı olmaması amilini də yaddan çıxarmaq olmaz. Ancaq əsas motiv, əlbəttə ki, həmsədrlərin konfliktin həllinə konseptual yanaşmamasından qaynaqlanır. Amerikalı vasitəçi Ceyms Uorlikin, ardınca isə Minsk Qrupu rəhbərliyinin ötən həftə AŞPA-da Ermənistanla bağlı qəbul edilən son obyektiv qərardan rahatsız olması da elə məhz bu yanlış yanaşma ilə bağlıdır. O üzdən onlar Ermənistanı birmənalı təcavüzkar kimi tanıyan fərqli və ədalətli sənəd və qətnamələri qısqanclıqla qarşılayırlar.

***

Həmsədrlərin Qarabağ məsələsində obyektivlikdən uzaqlaşmasını artıq xarici müşahidəçilər də qeyd etməyə başlayıblar. Məsələn, Moldova İctimai Palatasının prezidenti, ölkənin sabiq ombudsmanı, Azərbaycanın həqiqi dostu olduğu üçün hələ də erməni hədələrinə məruz qalan Aureliya Qriqoriu deyib: "Azərbaycan ATƏT-in Minsk qrupu ilə işləyərkən demək olar ki, erməniyönlü institutla üzbəüz qalır".

O da Minsk Qrupunun işini olduqca neqativ qiymətləndirib: "Minsk Qrupuna Azərbaycan və Ermənistana qarşı neytral mövqedə olan ölkələr daxil olmalıdırlar. Həmsədrlər Dağlıq Qarabağ münaqişəsini Azərbaycan ərazilərinin qeyd-şərtsiz azad edilməsini tələb edən beynəlxalq hüquq normaları baxımından nəzərdən keçirməlidirlər".

A.Qriqoriu güman edir ki, Minsk Qrupu Azərbaycanın işğal edilmiş ərazilərində qanunsuz rejimin Ermənistanın xeyrinə möhkəmlənməsinə imkan yaratmaq üçün sadəcə, vaxtı uzadır".

***

Xanım Qriqoriu əlbəttə ki, haqlıdır. Xüsusən də son illər Minsk Qrupunda balans işğalçı tərəfin xeyrinə aşkar şəkildə pozulub, həmsədrlər Qarabağ məsələsində beynəlxalq hüquq normalarından, nüfuzlu beynəlxalq təşkilatların qərar və qətnamələrindən deyil, əfsus ki, müharibənin nəticələrindən çıxış eləməyə və ilk növbədə işğalçıları, separatçıları razı salmağa başlayıblar ki, bu da haqlı olaraq, Azərbaycanə narahat edir, Bakını yeni və obyektiv həll formatı axtarışı zorunda qoyur.

Elə bir format ki, o, münaqişənin həllində hərbi qarşıdurumanın nəticələrindən deyil, birmənalı şəkildə beynəlxalq hüquqdan çıxış eləsin, vasitəçilikdə balansı gözləsin, tərəflərin hər birini öz adı ilə adlandırmağı bacarsın.

Bu mənada əslində 2016 - Qarabağa dair formatının dəyişdirilməsi ili ola bilər və olmalıdır, əgər təbii ki, əsas vasitəçi dövlətlər buna əngəl olmasa. Əks halda problem hər an qaynat fazaya keçə bilən indiki dondurulmuş vəziyyətdə qalmaqda davam edəcək - hamıya, o cümlədən konfliktə cəlb ölünmüş böyük güclərin maraqlarına təhlükə törətməklə. Və yaxud sülh prosesində hansısa irəliləyişə nail olmaq üçün vacibdir ki, Minsk Qrupunun hazırkı həmsədrliyi Almaniya kimi neytral və obyektiv dövlətlər hesabına genişlənsin.

# Ermənilər Azərbaycanın bu addımından qorxur

**Ermənistan siyasətçiləri Azərbaycanın nə vaxtsa Avrasiya Birliyinə daxil olacağına inanmırlar. İrəvanda nəşr olunan "İravunk" qəzeti sonuncu sayında bu barədə geniş məqalə dərc edib (anspress). Erməni politoloqlarının məsələ ilə bağlı fikrini öyrənən qəzetin məqaləsi Rusiya KİV-lərinin də diqqətini cəlb edib.**



Məqalədə Azərbaycan iqtisadiyyat və sənaye nazirinin müavini Sevinc Həsənovanın bu yaxınlarda Azərbaycanın Avrasiya İttifaqına daxil ola biləcəyi barədə verdiyi bəyanata toxunulub. Həmçinin, Azərbaycan xarici işlər naziri Elmar Məmmədyarovun sentyabr ayında Moskvada verdiyi müsahibədə də bu məsələni mümkün saydığı xatırlanıb.

Qəzetin suallarını cavablandıran politoloq Derenik Malxasyan bu məsələnin baş tutacağına inanmadığını söyləyib: "Düşünmürəm ki, Azərbaycanın Avrasiya İttifaqına daxil olması onun strateji maraqlarına uyğun gəlir. Bakı iki geosiyasi güc mərkəzi - Qərb və Rusiya arasında oynamaqla özünü çox rahat hiss edir. İstənilən halda Azərbaycan özü üçün heç bir perspektiv vəd etməyən Avrasiya İttifaqına daxil olmaqla birtərəfli oyun qurmaq istəməz".

Azərbaycan üzrə ekspert Qriqori Ayvazyan isə Azərbaycan rəsmilərinin bu cür bəyanatlar verməsini ictimai rəyin yoxlanması kimi qiymətləndirib: "Türkiyə ilə münasibətləri heç vaxt Azərbaycanın Rusiyanın aparıcı rol oynadığı ittifaqa girməsinə imkan verməz. Azərbaycanın təbliğat maşını bu cür məlumatlarla öz ölkəsinin, həm də Ermənistanın vətəndaşlarının reaksiyasını öyrənmək istəyir".

Siyasi məsələlər üzrə ekspert Ruben Marqaryan isə düşünür ki, həm Azərbaycan xalqı, həm də rəsmi Bakı Avrasiya İttifaqına ehtiyatlı və mənfi münasibət bəsləyir: "Azərbaycan ehtiyatlıdır, bunun da bir sadə səbəbi var - motivasiyası yoxdur". Erməni politoloqların hamısı bu motivasiyanı məhz Qarabağ münaqişəsinin həllində görürlər: "Avrasiya İttifaqı məsələsində Bakı həmişə Rusiya ilə alver eləmək məqsədi güdür. Əsas məqsəd Qarabağdır, məsələdə Moskvanın Azərbaycanın tərəfini tutmasına nail olmaq istəyidir".

Erməni politoloqları fikrincə, Moskva Azərbaycanın tərəfini yalnız rəsmi Bakı Avrasiya İttifaqına daxil olmağa razılıq verdikdən sonra tuta bilər. Erməni siyasətçilərini qorxudan əsas məsələ məhz budur.

YENİ MÜSAVAT
N 254 (6282) 16 noyabr 2015



# Bir balon brilyant

Samir SARI

**Yıxılanları baltalamaqdan əllərimiz qabar oldu, baltalaramız kütləşdi, korşaldı, amma hələ ortalıqda bir şey yoxdur, hamısı sağ-salamatdır, heç yerdə çabalamırlar da.**

Hanı bunların vəkilləri, niyə çıxıb "müvəkkillərimizin hüquqları pozulur", "saxlanarkən fiziki təzyiqə məruz qalıblar", "içəridə onlara işgəncə verilir" kimi çıxışlar etmir, mətbuata açıqlama vermirlər?

Hanı tutulanların ictimai-siyasi fəal olan dostları, qohum-əqrrəbaları, niyə ortaya düşüb müdafiə komitələri yaratmırlar?

Niyə hakimiyyəti hədələyən yoxdur ki, ölkədə bu işə ədalətlə baxılmasa, məsələni Avropa İnsan Haqları Məhkəməsinə daşıyacaq və orda işə prioritet qaydada baxılmasına çalışacaqlar.

Məlum olduğu kimi, belə söhbətlər, haqq-hesablar yoxdur. MTN-in generalları köhnə qaydada, səs-səmirsiz tutulurlar və cınqırlarını çıxarmırlar, tutulmazdan əvvəl hüquq müdafiəçilərini, jurnalistləri ofislərinə, evlərinə çağırmırlar.

Çünki onlar öz təqsirlərini bilirlər, başa düşürlər ki, dövranları dönüb, müqavimətin xeyri yoxdur, salamatı taleyə boyun əymək, hökmdarın mərhəmətinə sığınmaqdır.

Sonrası asandır, tutacaqlarsa, tutsunlar, illərlə toplanmış paraların hesabına içəridə bəy kefində yaşamaq olar.

Ancaq indilikdə əsas məsələ toplanmış sərvəti birtəhər qorumaqdır. Bu, çox çətin məsələdir. İyləyib-çüyləyib adamın harda nəyi var, tapırlar, tutub əlindən alırlar.

Heç kim də deyə bilmir ki, ixtiyarınız yoxdur, bu, mənim halal qazancımla əldə etdiyim mülkdür. Deyə bilmirlər, çünki ortada halallığın "ha"sı da yoxdur, hər şey haramlıqla, haramiliklə, soyğunçuluqla, açıq quldurluqla, reketlə, talanla, kələklə başa gəlib.

Atalar öz zamanlarında deyiblər axı, "kələklə gələn küləklə gedər". Bizim kələkbazlar bu hikmətli məsəli hərfi mənada anlayırlar, gedib villalarını külək tutmayan yerlərdə tikdirir, hasarlarını heç bir xəzrinin, hətta səmum yelinin belə girə bilməyəcəyi qədər qalın və hündür edir, elə bilirlər, külək onlardan heç nə apara bilməz.

Amma tifaqları dağıdan külək, qasırğa, tornado, sunami təbiətdən gəlmir, ali sarayların təbiətindən gəlir və bir gün kələklə yığılan milyonları uçurub aparır.

İndi deyirlər, nazirin bağ evindən bir üç kiloluq balonda brilyant aşkar olunub götürülmüşdür. Düzü, adamın buna inanmağı gəlmir. Daha doğrusu, brilyantların tapıla biləcəyi inandırıcıdır, hətta "tapılmayıb" desələr, heç kəs inanmaz, fəqət burda inamsızlıq yaradan detal balonun miqyasıdır. Yenə bir kiloluq balon desələr... 3 kilo çoxdur. Bəlkə də xam almazın vətəni Cənubi Afrika Respublikasında ildə 3 kilo brilyant istehsal etsələr, sevindiklərindən il on iki ay vuvuzela çalarlar.

Ondan da keçən yerdə, 10 il öncə bu vaxtlar dolaşdırılıb tutulmuş nazirlərin nə qədər böyük korrupsioner olduqlarını göstərmək üşün hüquq-mühafizə orqanlarının zərgərlik mağazalarından qızıl-zinət əşyalarını müvəqqəti kirayəyə götürərək videoçəkilişdə istifadə etdikləri haqq-hesabını bilirəm. Məqsəd də bu olub ki, tamaşaçıda effektiv rəy yaransın, ömrü boyu arvadına bir üzük, bir sırğanı zorla alan sadə vətəndaş əlini dizinə çırparaq, "pah atonnan, insanın nə qədər qızılı olar" deyə vaysınsın. Elə də olmuşdu. O qızıl lentlərin xalqa göstərildiyi günün ertəsi yüz minlərlə adam bundan danışırdı. Hərçənd "pah atonnan" nidasından sonrakı zərbələr nəticəsində göyrəmiş dizlərin monitorinqini aparmaq çətin idi.

Ona görə də gərək hər deyilənə, göstərilənə dərhal inanmayaq. Ola bilər ki, tutulan generallardan, məsələn, yarım kilo brilyant tutulub. Ağlımız qızıla, platinə getməsin, brilyanta gələndə yarım kilo da balaca çəki deyil.

Yeri gəlmişkən, dünyanın ən böyük brilyantı Nadir şaha məxsus olub. O da Hindistandan çırpışdırıbmış. Hazırda o brilyant Rusiyanın almaz fondundadır. (İran onu Tehranda öldürülmüş Qriboyedova görə qanpulu verib).

Yəni Nadir şaha qalmayan brilyant heç kimə qalmaz, əziz oxucular, brilyant həvəskarı olmayın, Brilyant Dadaşovanın ifasında "Vokaliz"ə qulaq asın, mənalı sözləri var.

# "Mahmudov-Çovdarov bandası hakimiyyəti ələ keçirmək istəyirdi"

## Ərəstun Oruclu: "Mahmudovun oyunu başlanğıcdan məğlubiyyətə məhkum idi və belə də oldu"

**Sabiq MTN zabiti, politoloq Ərəstun Oruclu sensasiyalı bir açıqlama ilə çıxış edib. O, facebook statusunda yazıb: "Rusların məşhur atalar sözü var: "Het xuda bez dobra". Mənası təxminən belədir ki, hər pis işin içində bir yaxşı da olur. Sözüm Eldar Mahmudovun məlum dəstəsi haqqındadır. Hər kəs də olmasa, çoxları aydın şəkildə dərk edir ki, bu banda addım-addım hakimiyyəti ələ keçirməyə doğru irəliləyirdi.**

Elə deyilsə, o zaman media məkanına bu qədər dərindən nüfuz edərək onlarla saytlar açmaq, loyal olmayan ictimai-siyasi kəsimi sıradan çıxarıb yerini öz agentura şəbəkəsi ilə doldurmaq, dövlətin ən yüksək pillələrində duran şəxslərə və onların ailə üzvlərinə dosyelər açmaq, bir sıra xarici dövlətlərin müxtəlif qurumları ilə sıx əlaqələr qurmaq, mətbuatda MTN rəhbərliyinin "uğurlu əməliyyatları" barədə müntəzəm piar-kampaniyalar aparmaq, xeyli nazir və rəsmiləri özləri, ailə üzvləri haqqında topladıqları ifşaedici məlumatlarla şantaj edərək öz iradələrinə tabe etmək, bir sıra dövlətlərin başında duran şəxslərin yaxın ailə üzvləri ilə biznes əlaqələri qurmaqla onlara külli miqdarda rüşvət vermək, Azərbaycanın əksər ölkələrdə fəaliyyət göstərən səfirlik və nümayəndəliklərinə özünün çoxlu sayda adamlarını yerləşdirmək, Avropanın müxtəlif dövlətlərində siyasi sığınacaq almaq yolu ilə öz geniş şəbəkəsini qurmaq və nəhayət, parlament seçkilərində iştirak üçün böyük bir qrupu hazırlayıb siyasi arenaya gətirmək bunların nəyinə lazım idi? Sözsüz ki, biz hələ bu cinayətin ifşasının başlanğıc mərhələsindəyik və əminəm ki, burda sadalanan bəndlərdən daha ciddiləri var və onların da açılacağına şübhəm yoxdur. Sabah bu miqyaslı cinayətin içindən hansısa siyasi partiya(lar)ın adı çıxanda, hansısa projelərin arxasında Mahmudov-Çovdarov dəstəsinin durmuş olduğu deyiləndə, güc strukturlarından hansınınsa onlarla bir bağlamada olduğu açıqlananda (bunun da ilkin əlamətləri artıq görünməkdədir) hay-küy, haray-həşir aləmi götürəcək və hətta xeyli adam da bütün bunların böhtan olmasına inanacaq. Amma bəndəniz bilir ki, bu, belə deyil və oxuduğunuz postu da bu gün, indi təsadüfən yazmır. Bütün bunlar nə medianın təhlilindən, nə də kimlərinsə fikirlərinin öyrənilməsindən əldə etdiyimiz nəticə deyil, bunlar İllər boyu bizə daxil olan məlumatlara əsaslanaraq gəldiyimiz qənaətdir".



Ərəstun Oruclu

Ə.Oruclu daha sonra qeyd edir: "Məlumatları isə təsadüfən və ya kiminsə sifarişi ilə toplamırdıq, onlar "öz ayağı" ilə gəlirdi, çünki bu cür məlumatları ötürənlər hər hansı ikibaşlı oyunlarda, siyasi avantüralarda iştirak etmədiyimizə əmin idilər, əks-halda heç vaxt güvənib bu cür bilgiləri bölüşməzdilər. Bəli, Eldar Mahmudovun dəstəsi Azərbaycanda hakimiyyəti götürməyə hazırlaşırdı və onun illərin sınağından çıxmış dostu, "şanlı general" Akif Çovdarov məhdud bir çevrədə "Ölkənin Baş naziri Eldar müəllim olmalıdır!" söyləyəndə faktiki olaraq patronunun niyyətlərini, hədəflərini və məqsədlərini açmışdı. Bu da təbiidir, çünki hakimiyyəti taxta-şalban alverçisi ilə götürmürlər, üstəlik də özün kartof-soğan satandan xərac yığansansa. Mahmudovun oyunu başlanğıcdan məğlubiyyətə məhkum idi və belə də oldu. Çünki onun təkcə hədəfinə çatmaq üçün atdığı bütün addımları deyil, qarşısındakı rəqiblərini dəyərləndirməsi də yanlış idi, belə qətiyyətlə sıradan çıxarıla biləcəyini hesablaya bilməməsi də. Burda da qeyri-adi heç nə yoxdur, OBXSS "təfəkkürü" artığına qadir ola bilməzdi. Ona görə də Mahmudovun səhnələşdirməyə hazırlaşdığı komediya başlamamışdan bitirildi, bütün zəhmətləri hədərə getdi, "investisiyaları" batdı, nəhayət, altdan onun oyunlarında iştirak edib cəmiyyətə özünü başqa qiyafədə təqdim edənlərin əksəriyyəti ifşa olundu və yuxarıda qeyd etdiyim kimi, hələ xeylisi də ifşa olunacaq. Bütün bu komediyadan gələn bir xeyir də elə bu oldu, çünki indi ölkənin ictimai-siyasi atmosferi tam da olmasa, xeyli təmizlənəcək. Bu isə qaçılmazdır, çünki komediya bitdisə, deməli nə birdəfəlik ucuz aktyorlara, nə pafoslu tamadalara, nə də siyasi klounlara ehtiyac olmayacaq. İndi qalır təkcə pərdəni endirib "Finita la kommedia" elan eləmək".

❑ T.ƏHMƏDLİ

# Hakimiyyət nə üçün kənardan kadr gətirmir?

## Ekspert: "İqtidara ilk növbədə loyal, sadiq kadr lazımdır..."

**Azərbaycanda nazirlər, yüksək çinli məmurlar vəzifədən azad edilsə də, onların yerinə kənardan kadr gətirilmir. Ya nazirliyin daxilində yerdəyişmə edilir, yaxud da illərdir iqtidarın yanında olan şəxslər bir postdan, digərinə transfer edilir. Halbuki müxalifət qüvvələrinin də daxilində kifayət qədər potensiallı kadrlar mövcuddur.**



Bəs belə olduğu halda hakimiyyətin bu cür kadr siyasətinin səbəbi nədir?

Məsələ ilə bağlı "Yeni Müsavat"a danışan politoloq Ərəstun Oruclu öncə müxalifətdə nə dərəcədə güclü kadrların olduğunu söyləməyin çətin olduğunu söylədi: "Çünki müxalifət, vətəndaş cəmiyyəti və ümumiyyətlə, hakimiyyətdən kənar bütün ictimai-siyasi institutların nümayəndələri, uzun illərdir ki, praktik fəaliyyətdən kənardadırlar. Buna görə də kənarda güclü kadr məsələsinin nə dərəcədə doğru olduğunu deyə bilməərəm. Ancaq təbii ki, hakimiyyətin bəhs etdiyimiz kadr siyasətində səbəb bu deyil. Səbəb ilk növbədə siyasi hakimiyyətə loyallıq amilinin önə çəkilməsidir. Yəni bildiyimiz kimi hakimiyyətin daxilində gedən yerdəyişmələr və dəyişmələrin hamısının səbəbi bir sıra məmurların, nazirlərin hakimiyyətə loyallıqlarının itməsidir. Ona görə də sıradan çıxarılırlar. Qalan məsələlər isə ikinci dərəcəlidir. Onlar əvəzlənən zaman da yerlərinə gətirilən kadrların yenə də loyallığına diqqət edilir. Bu isə yalnız iqtidarın daxilində olanlara şamil edilən keyfiyyətdir. Ona görə də hakimiyyət yalnız öz kadr potensialından istifadə edir - baxmayaraq ki, bir sıra hallarda hakimiyyətin kadr potensialı kifayət qədər solğun görünür".

Politoloq bildirib ki, hakimiyyət eyni zamanda kadr çatışmazlığı yaşayır: "Bu arqument də aydın şəkildə sezilir. Ancaq hakimiyyət, dediyim kimi, məsələyə başqa meyarlarla yanaşır. Ona çox da keyfiyyətli yox, loyal, sadiq kadr lazımdır. Buna görə də hakimiyyət düşünür ki, kənardan gətirilən şəxslərdən bunları gözləməyə dəyməz. Hesab edirəm ki, son zamanlar aparılan kadr dəyişikliklərinin də dövlət idarəçilik sisteminə heç bir təsiri olmayacaq. Bu sistem yalnız o zaman dəyişə bilər ki, prinsiplər və hüquqi çərçivələr dəyişsin. Hələlik isə hüquqi çərçivə yoxdur. Prinsiplər də dəyişilməyib. Hakimiyyətin bütün qanadları ali icra hakimiyyətinin iradəsi əsasında formalaşdırılıb. Bir sözlə, hakimiyyət, "piramida"nın yuxarısından idarə olunur".

❑ Əli RAİS

YENİ MÜSAVAT
N 254 (6282) 16 noyabr 2015

**Fransada terror törədərək 153 nəfər insanın həyatına son qoyan İŞİD terroru hansı səbəbə görə törətdiyini açıqlayıb. Terror təşkilatı İslam Peyğəmbərinin (ə) təhqirinə və Fransanın Suriyadakı hava hücumlarında iştirakına görə bunun qisas aktları kimi həyata keçirildiyini bəyan edib. Təşkilat hücumlar dayandırılmayınca terror aktlarının davam edəcəyini bildirib.**



# Fransadakı terroru dinlə bağlamaq yanlışdır

## İlahiyyatçı Bəhruz Camal: "Peyğəmbərimiz onu təhqir edənlərlə heç vaxt belə rəftar etməyib", "Fransada baş verən hadisələr yeni siyasi oyunun başlanğıcıdır..."

Bu terror aktını isə onların Fransaya bir xəbərdarlıq mesajı olduğunu deyiblər. İŞİD-ə yaxın saytlar terror aktını "Avropanın 11 Sentyabrı" kimi şərh ediblər. Parisdə isə hücumu həyata keçirən terrorçulardan biri həbs edilərkən "mən İŞİD-in üzvüyəm" deyə şüar səsləndirib. Xatırladaq ki, bir müddət öncə də Fransanın "Charli Hebdo" jurnalı redaksiyasına da hücum olmuşdu. Redaksiyaya hücum edən radikal qüvvələr eyni motivlə 12 nəfəri güllələmişdilər.

Bəzi dairələr baş verənləri İslam adına bağlamaqla həm müsəlman dövlətləri, həm də xarici ölkələrdə yaşayan müsəlmanlar haqda neqativ fikir yaratmağa çalışır. İlahiyyatçı Bəhruz Camal isə son olayların dinlə əlaqəsi olmadığını və bunun hansısa bir siyasi oyunun davamı olduğunu dedi: "Fransada baş verən hadisə çox üzücü bir hadisədir. Bu hadisə neçə nəfər günahsız insanın ölümünə səbəb oldu. Bunu İslamla bağlamaq nə məntiqə , nə əqlə, nə də İslamın qanunlarına sığan şeydir. Bir müddət ABŞ İraq və Şərq ölkələrinə terror adı altında girməsi üçün özünün əkiz ticarət binasını partlatdı və bunu hansısa bir terror qrupunun adı ilə bağladı. Bundan sonra Əfqanıstan və İraqı demokratiya adı ilə fəth edib bərbad günə qoydu. Əslində dərinə getsək, araşdırsa bu suallar ortaya çıxır. Kimdir axı bu terror təşkilatları? "Əl-Qaidə", "Taliban", bunlardan törəyən İŞİD haradan çıxıb? Əslində bunların hamısı zülmət qərbin siyasi fiqurlarıdır. Şərqdə məsələni qarışdırıb siyasi oyunları öz əllərinə almaq üçün hər an bu cür qruplardan istifadə edirlər. Bu gün Fransada da həmin dönəmdir. Yəni super güclərin Suriyada törətdikləri cinayətlər fiaskoya uğradığına görə yenidən Suriyaya daxil olmaq üçün bir bəhanə lazım idi. Mən belə düşünürəm ki, yenə də özlərinin həmin o Şərqdəki terror şəbəkələrini İslam adı altında işə saldılar. İslamı qaralamaq üçün hətta öz vətəndaşlarını belə düşünmədən qurban etdilər ki, yenidən Suriyaya, yaxud hansısa Şərq ölkəsinə terrorla mübarizə adı altında rahat girib öz siyasətlərini yeridə bilsinlər. Bu ölkələrin bu günə kimi terrorla mübarizə adı altında hansı cinayətlərə imza atdığı da məlumdur. Məncə burada məzlum Fransa xalqı da böyük bir oyunun qurbanına çevrildi. Bu hadisə onlar üçün zəruri idi ki, Şərq ölkələrində öz cinayətlərini davam etdirsinlər".


Bəhruz Camal

İlahiyyatçı baş vermiş hadisənin dinə, İslama heç bir aidiyyəti olmadığını dedi: "Peyğəmbərin həyat tərzinə baxsaq görərik ki, Peyğəmbər onun başına qoyunun bağırsağını, içalatını tökən yəhudini belə nə təhqir edib, nə də çırtma vurub. Əksinə, yəhudi xəstələnəndə Peyğəmbər gedib ona baş çəkir və həmin yəhudi ömrünün son anında İslamı qəbul edir və bildirir ki, mən əvvəlcədən bilsəydim ki, İslam bu cür humanist dindir və insan faktoruna bu qədər önəm verir əvvəlcədən İslamı qəbul edərdim. Heç nə dəlalət vermir ki, biz gedib günahsız insanları öldürək ki, bunlar bizim peyğəmbərimizi təhqir edir. Peyğəmbəri təhqir edən əgər bir nəfərdisə, sənin istiqamətin ona yönəlməlidir. Hüquqi şəkildə və yaxud da başqa bir şəkildə sən bunun səbəbini ondan tələb etməlisən. Peyğəmbərimiz onu təhqir edənlərlə heç vaxt bu cür rəftar etməyib. Amma bu o demək deyil ki, kim peyğəmbəri təhqir edirsə bunu rahat bir şəkildə edə bilər və biz buna susmalıyıq. Biz qanuni çərçivədə etirazlarımızı bildirə bilərik. Çünki hər bir xalqın hər bir dində müqəddəs qırmızı xətləri var. Heç bir millətin, heç bir dinin başqa bir xalqın qırmızı xəttini keçməyə, müqəddəs saydıqlarını təhqir etməyə haqqı yoxdur. İstəyir müsəlman olsun, ya da qeyri-müsəlman. Heç müsəlmanların da haqqı yoxdur ki, başqa dinlərin qırmızı xətlərini, yəni milli mənəvi dəyərlərini təhqir etsinlər. Peyğəmbər də bütün İslam dünyasının milli mənəvi dəyəridir. Onu təhqir eləməyə heç bir dinin, xalqın mənəvi haqqı çatmır. Amma peyğəmbər təhqir olunub adı altında hansısa bir xalqa qarşı terror törədilirsə bu nəinki din, heç insanlıq çərçivəsinə sığmır. Çünki hər bir şeyin humanistcəsinə həll olunası bir yolu varkən, sən peyğəmbəri təhqir edən qalsın qıraqda, get terror törət və minlərlə günahsız insanın ölümünə bais ol. Əgər indi peyğəmbər aramızda olsaydı və biz ondan soruşsaydıq ki, bunu edəkmi, mən əminəm ki, o, "yox" deyəcəkdi. Çünki peyğəmbərin həyat tərzinə, onun yaşadığı ömrə baxanda görürük ki, peyğəmbər hətta müharibədə belə aman istəyən kafiri öldürən səhabəsini danlayıb ki, sən onu niyə öldürdün, o səndən aman istəyirdi. Yəni belə bir peyğəmbərin adını terrorla, bu cür neqativ hallarla səsləndirmək ən azında İslama və peyğəmbərə hörmətsizlikdir. Təəssüflər olsun ki, bu hörmətsizliyə zəmin yaradan elə qondarma müsəlmanlardır. Əslində mən onlara müsəlman deməzdim. Onlar əvvəldə qeyd etdiyim kimi, İslamı gözdən salmaq, qaralamaq üçün Qərbin yetişdirdiyi qruplaşmalardır. Ümumiyyətlə, Qərb və Şərq barədə mənim iki yanaşmam var. Bir dünyaya mədəniyyət və sivilizasiya ixrac edən Qərb, Şərq var, bir də bu gün dünyaya mədəniyyət, sivilizasiya, demokratiya adı altında zülmət, irtica ixrac edən Qərb var. Bu gün Fransa, Suriya, Livan və dünyada terrora məruz qalan bütün xalqlar hamısı dünyaya sivilizasiya adı altında irtica ixrac edən Qərbin oyuncağına çevrilib. Təəssüflər olsun ki, bu günə qədər hətta Qərbə belə mədəniyyət, inteqrasiya, sivilizasiya ixrac edən Şərq "Taliban", "əl-Qaidə", İŞİD kimi zülmət ixrac edir. Əgər bu gün hansısa Qərbin super gücləri öz siyasətlərini yeritmək üçün öz vətəndaşlarına belə qıyırlarsa, bunu heç bir çərçivəyə sığdırmaq olmaz. Həmçinin, Şərqdəki hadisələr. Əslində burada nə Qərb, nə də Şərq məsələsi mühümdür. Müəyyən qruplar dünya Allahlığı iddiasındadırlar və bütün dünyanı qarışdırmaqla məşğuldurlar. Fransada baş verən hadisələr də hansısa siyasi oyunun başlanğıcıdır".

❑ **Günel MANAFLI**

# "Vurulan" məmurlardan imtina



**Sevinc TELMANQIZI**
s.qurbanova@gmail.com

Bu günlərdə eks nazir villası, bağı, qızıl dolu sandığı... tapmayan jurnalistə məşhur filmdə deyilən kimi, birtəhər baxırlar. Sevincək olmuşuq rəsmən. Mövzu bolluğu, sensasiya dənizi. Elə gün olmur ki, kimsə tutulmasın, minimum istintaqa çağırılmasın, kreslosu titrəməsin. Tutulan adam vəzifəlidirsə, ondan zamanında "quyruq acısı" olanlar da dərhal üz tuturlar qəzetçilərə. Ballandıra-ballandıra danışırlar başlarına gətirilən zülmləri. Hiss edirsən ki, bir az da üstünə qoyurlar. Amma hadisədir, neyləyəsən?

Belə məqamda ən maraqlı situasiya "vurulan" məmurların yaxın ətrafıdır. Vəzifəyə gələn kimi arvadının xalası oğlunun bibisi qızının balaca nəvəsini... işə düzəldib, özünə komanda qayıran məmur tayfası ən çox bu zaman yanır. Zarafat deyil, onlar nazirliyi az qala kəndlərindəki məhləyə çevirəndə bu günün sabahını düşünmürlər axı. Amma vəzifədən çıxarılan kimi batan gəmini tərk edən də onlar olur. Bilirsiz də, batan gəmini birinci hansı dördayaqlı qoyub qaçır?

Vəzifədə olanda barəsində "canım qardaşım" dediyi bir eks məmurun tanışına zəng etdim o gün. "Gəlin, danışaq, hamı sizin dostunuzu pisləyir. Bəlkə siz gerçəkləri bizə nəql edəsiz" deyə soruşdum. Dedi, "filankəs müəllimə canım qurvan, onun kimi oğul var bu ölkədə? Amma danışsam, mənim kimi oğul da olmayacaq yer üzündə". Söz oyunu xoşuma gəlsə də, söhbətin mahiyyətindən iyrəndim. Səbəb?

Bizdə qohumçuluq institutu dövlət idarələrinə, müəssisələrinə, kreslolara... qədər yayıldığı üçün insan bundan iyrənir. Təsəvvür edin ki, vəzifədə olan bir qohumunuz var. Kənddə-kəsəkdə nə qədər adam varsa gəlib ondan iş istəyir. Qabiliyyəti çatdı-çatmadı, yüksək vəzifələrə iddia edirlər özü də. Maaşlı, paket sistemli işlərə həm də. Bu da "ətimi yesə də, sümüyümü atmaz qohumum" məntiqi ilə yarıtmaz insanları bir-bir doldurur vəzifələrə. Nəticədə kim itirir? Səriştəsiz məmurun əməllərindən hamımız əziyyət çəkirik: siz, biz, onlar...

Təsəvvür edirsizmi ki, indi nazir qohumu işdən çıxarılmış, vəzifəli dostunun istintaqı gedən neçə min azərbaycanlı tikan üstündə oturub? Krediti hələ ödənməmiş nə qədər evlər, maşınlar, bağların... taleyi sual altındadır? O qohumların xaricdə oxuyan uşaqları çemodanlarını hazırlayıb-hazırlamamaq barədə tədəddülat içindədilər. Elə burdakılar da bankalardakı qızıllarını qoltuqlarına vurub, Araz aşağı üzmək barədə planlar qururlar. Bunun "vurulan" məmurun yaxın, amma çirkin qohumu ilə "məntiq evliliyi" qurmuş cavanı var ki, onun pərtçiliyi sözə gəlməz. Adam kabab iyinə gedəndə... qarşılaşdığı mənzərənin şokunu üstündən atması çətin olur. Daha çox sadalasam, faciənin miqyası da böyüyər. Yaxşıdı budu, burda dayanaq.

Bütün bunlardan sonra mən bu vurulan məmurlara nə arzulayıram bilirsizmi? İstintaq, cəza-filan... özləri bilər, qulluq etdikləri hökumət bilər. Mən onlara "qohumlarının imtinası"nı arzulayıram. Bizim demokratları, yazarları pisikdirmək, öz aləmlərində sındırmaq üçün ata-analarından, qohum-qardaşlarından imtina ərizəsi alırlar ha, necə deyərlər, o ərizənin eynisini onlara da arzulayıram.

Qoy onlar da bu pisikdirmənin psixologiyasını yaşasınlar. Min cəzadan daha ağırdır. Anlayana təbii ki.

# İstədilər yaxşı olsun, lap pis və baha alındı

## Marşrut "islahatları" sərnişinlərin həm xərcini artırıb, həm də yolunu uzaqlaşdırıb




**Bir müddət əvvəl həm "BakuBus" avtobuslarının xəttə daxil edilməsi, həm də əvvəlki avtobusların marşrut xətlərində yenilənmələrin olması bəzi avtobusların yolunu tamamilə dəyişdi. Bu dəyişiklik isə bəzi sərnişinlərin işini çətinləşdirib, xərcini çoxaldıb.**

Belə ki, əvvəllər Binəqədi qəsəbəsi, "kənd Binəqədi" adlanan yerdən "Neftçilər" metrosu yaxınlığına gedən 125 nömrəli marşrut avtobus artıq xətdən çıxarılıb. Sonuncu dayanacağı "Neftçilər" metrostansiyası olan bu avtobusun marşrut xəttinə "Azadlıq", "Koroğlu", "Qara Qarayev" metroları da daxil idi.

Artıq həmin avtobusun xətdən çıxarılması adıçəkilən ərazidə yaşayan və "Neftçilər" metrosu yaxınlığında işləyənlərin yol xərcini ikiqat artırıb. Belə ki, onlar artıq həmin metrolardan birinə getmək üçün ya iki avtobus dəyişməli, ya da mütləq metrodan istifadə etməlidirlər. Bu da həm əlavə vaxt itkisinə, həm də yol xərcinin iki dəfə artmasına gətirib çıxarır.

Binəqədi kənd sakini Əhməd Cəfərov virtualaz.org saytına açıqlamasında deyib ki, onun iş yeri "Neftçilər" metrosu yaxınlığındadır və hər gün istifadə etdiyi marşrut avtobusunun xətdən çıxarılması yolunu xeyli uzadıb: "Onsuz da çox maaş almırıq, qazandığımızın yarısı da yol puluna gedir. Mənim yaşadığım yerdən birbaşa iş yerimə getmək üçün ən azı 2 avtobus dəyişmək lazımdır. Marşrut xətləri dəyişdiriləndə bu hallar niyə nəzərə alınmır?"

Oxşar hal "28 may" metrosu yaxınlığında da yaşanır. Belə ki, əvvəllər adıçəkilən metro yaxınlığından birbaşa "Neftçilər" metrosuna 30 və 49 saylı avtobuslar gedirdisə, indi onların hər iki xətdən çıxarılıb. Artıq həmin avtobuslar yalnız "Xətai" metrosundan "Neftçilər"ə gedir.

Bu avtobuslara minmək üçün isə sərnişinlər ya metro ilə, ya da "28 may" yaxınlığındakı avtobuslardan biri ilə "Xətai"yə getməlidir. Bu da yenidən ikiqat yolxərcidir.

Təbii ki, sərnişinlər "28 May" stansiyasından "Neftçilər"ə metro ilə də gedə bilər. Amma onların sözlərinə görə, elə adam var ki, evi həmin avtobusun keçdiyi yolun üstündədir, metroya yaxın deyil. Yəni sərnişin "Neftçilər" metrosuna qədər metro ilə getsə belə oradan evinə getmək üçün yenə avtobusa minməlidir.

Ekspert Azər Allahverənovun fikrincə isə əhalinin sıx məskunlaşdığı massivlərdə yaşayan sakinlər bəzi avtobusların bərpası üçün müraciətlər etməlidir: "İstənilən halda xəttə yeni "BakuBus" avtobuslarının buraxılması müsbət haldır ki, bu da sərnişinlərə daha rahat və yüksək xidmət göstərilməsi üçün vacibdir. Bəzi avtobusların xətdən çıxarılması və sərnişinlərin yolunun uzanması da aktual məsələdir. Elə massivlər var ki, orada əhali kifayət qədər sıx yaşayır. Həmin insanlar əvvəllər şəhərə bir avtobusla gələ bilirdisə, indi bundan məhrum olublar. Ona görə də onlar qrup halında müraciətlər etməlidir ki, müvafiq qurumlar da problemin vacibliyini anlasın. Müvafiq tədbirlər görsün".

❑ **Virtualaz.org**

**Kişilər!!! Axırıncı şans!!!**

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda**, nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağıdakı xəstəlikləri**, keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi** (***enurez***)
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, qulunclarin dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**

**Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ**

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gözləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN
Tel: (055) 776-70-34



# Bu gün qanunsuz məhkum olunan əlilin məhkəməsi keçiriləcək

## Rauf Sultanovun apelyasiya şikayəti təmin ediləcəkmi?

**Noyabrın 16-da Bakı Apelyasiya Məhkəməsində hakim Vüqar Məmmədovun sədrliyi ilə Rauf Sultanovun apelyasiya şikayəti üzrə məhkəməyə hazırlıq iclası keçiriləcək.**

1-ci qrup əlil olan R.Sultanov Xəzər rayon Məhkəməsinin hökmü ilə 5 il müddətinə azadlıqdan məhrum edilib. R.Sultanov Xəzər Rayon Məhkəməsinin hökmünü sifarişli və qanunsuz sayır. Bildirir ki, istintaqçılar ona münasibətdə yol verdikləri qanunsuzluğu ört-basdır etmək üçün daha bir qanunsuzluq törədiblər. Bu yolla ömürlük əlil olan Rauf Sultanov daha bir qondarma ittihamla üz-üzə qalıb.

Hazırda Penitensiar Xidmətin 3 saylı İstintaq Təcridxanasında saxlanılır. Əməyə qadir olmayan, daim kənar şəxsin qulluğuna möhtac olan bu şəxsin yaxınları bir müddət əvvəl prezidentə müraciət ediblər. R.Sultanovun bacısı prezidentə mraciətində Nəsimi polisinin müstəntiqi Vüqar Məcidovun cinayət işinin materiallarında qardaşına məxsus imzanı saxtalaşdırdığını yazıb: "Müstəntiq bu əməli ilə cinayətə yol verib. Həmin imzanın saxta olmasına dair məhkəmə xətşünaslıq və sənədlərin texniki ekspertizasının 25 may, 2015-ci il tarixli 80278028 saylı rəyi verilib. Həmin rəy bizdə və Nəsimi Rayon Prokurorluğunda mövcuddur. Müstəntiq Vüqar Məcidov barəsində hazırda Nəsimi Prokurorluğunda müstəntiq Anar Abıyev tərəfindən 5 aydan çoxdur araşdırma aparılır. Nəsimi prokuroru Salman Məmmədli və Anar Abıyev Vüqar Məcidovun cinayət əməlini ört-basdır etməyə çalışırlar".

R.Sultanovun bacısı qeyd edib ki, qardaşı barəsində Nəsimi polisində başlanmış cinayət işi sonradan Xəzər polisinə göndərilib: "Guya qardaşım Binə qəsəbəsində kiməsə qarşı dələduzluq edib. Xəzər Polis İdarəsinin İstintaq Şöbəsinin rəisi Erol Əliyev nüfuzundan və vəzifəsindən istifadə edərək qardaşıma yenidən dələduzluqla ittiham elan edib. İşin istintaqı Elmar Abdalova tapşırılıb. Erol Əliyevlə qardaşım bir yerdə oxuyub, onunla məktəbdən konflikti olub. Müstəntiq Abdalov qardaşımın imzasının saxtalaşdırılmasına dair ekspertiza rəyini ittiham aktında düzgün əks etdirməyib. Qardaşımın müdafiə hüququnu pozub. İttiham aktında qeyd olunub ki, guya imza qardaşımındır, guya bu haqda ekspertizanın rəyində bildirilir".

R.Sultanovun bacısı yazır ki, qardaşını cinayət işi ilə tanış etmədən ittiham aktı tərtib edərək prokurora göndəriblər. Prokuror isə qanunun tələbi pozulmaqla tərtib olunmuş ittiham aktını təsdiqləyib və məhkəməyə göndərib: "Xəzər məhkəməsinin hakimi Tərlan Əkbərov cinayət işində olan saxta şahidləri dindirmədən qardaşımı 5 il müddətinə azadlıqdan məhrum etdi. Həmçinin bildiririk ki, hakim məhkəmənin ittihamedici hökmündə ekspertizanın rəyini düzgün qeyd etməyib. İttiham aktındakı imzanın guya qardaşım tərəfindən icra olunduğunu yazıb".

O, prezidentə müraciətində qardaşının həyatının təhlükədə olduğunu da yazmışdı və günahsız olan əlil vətəndaşın həbsdə qalmasının heç bir qanuna sığmadığını qeyd etmişdi.

❑ **E.MƏMMƏDƏLİYEV**

**Elan**

**Bakının Nəsimi rayonu, Xan Şuşinski küçəsi, ev 12-də Məmmədzadə Şəhla Zakir qızına məxsus 48 saylı mənzilin texniki pasportu və çıxarışı (kupçası) itdiyi üçün etibarsız sayılır.**

YENİ MÜSAVAT
N 254 (6282) 16 noyabr 2015

# Paltarın öldürdüyü adamlar

## Geyim sevdası, alış-veriş tutqusu insanı necə ölümə apara bilərmiş...



**"Az paltar al, evdə onları qoymağa yer yoxdur"... Anaların qızlarına, kişilərin öz həyat yoldaşlarına tez-tez təkrarladığı sözlərdəndir bu. Hətta bir az irəliyə gedib, "çox paltar almaqdan, mağaza gəzməkdən öləcəksən bir gün" deyənlər də olur. Sizə zarafat kimi görünə bilər. Amma dünyada məhz paltarın öldürdüyü insanlar var. Onlar bu və ya digər səbəbdən paltarın qurbanına çevriliblər.**

Bu günlərdə internetdə qarşıma çıxan bu məqaləni diqqətlə oxuyandan sonra paltarlarıma necə qorxu ilə baxdığımı təsəvvür belə edə bilməzsiz. O hekayələrdən bəzilərini diqqətinizə çatdıraq.

### Birini şalvar öldürdü, o birini corab, bir başqasını gəlin paltarı

1928-ci ildə bir kişini şalvar öldürüb. İşin ironiyası ondan ibarətdir ki, bu şalvar heç ona məxsus deyildi və əynində də deyildi. O, bu paltarı kirayə haqqını ödəməyən kirayənişinindən götürmüşdü. Məqsəd kirayənişini borcunu ödəməyə məcbur etmək idi. Belə ki, kirayənişin bir gün sonra borcunu ödəmək üçün gələndə qapını döysə də, heç kim cavab verməyib və məlum olub ki, ev sahibi ölüb. Məlum olub ki, kirayənişinin şalvarını bir qırağa atan kişi onun qaz plitəsinin vintilinə ilişəcəyini təxmin etməyib. Amma şalvar vintilə ilişdiyi üçün gecə boyunca evə qaz dolub və ev sahibi də elə yuxudaca qaz zəhərlənməsindən dünyasını dəyişib.

30 yaşlı Mariya Pantazopolus toy fotoalbomu üçün Dorvin şəlaləsinin yanında şəkil çəkdirib. Daşda sürüşən gəlin, suya yıxılıb. Fotoqraf onu xilas etmək üçün arxasınca suya hoppansa da, bir neçə qatlı paltar onu sudan xilas etməyə imkan verməyib və gəlin toy gününü görmədən dünyasını dəyişib.

20 yaşlı avtobus sürücüsü Pedro Dellatore yemək üçün baş çəkdiyi restoranda güllələnib. Hadisədən bir neçə saat sonra yaxalanan qatil etiraf edib ki, sürücünü səhvən öldürüb. Onun əynindəki paltar qatili yanıldıb, onu öz potensial qurbanı bilərək qətlə yetirib.

Karmen Dominqes adlı şəxs isə xeyriyyə məqsədilə yığılan paltarlara baxarkən dünyasını dəyişib. O, paltarların arasındakı corablardan birinin içində yerləşdirilən tapançaya qəfil toxunduğu üçün dünyasını dəyişib. Ürəyindən yaralanan qızı xəstəxanaya aparıblar, amma o sağalmayıb. Silahın hansı üsulla corabın içinə necə düşməsi isə son ana qədər qeyri-müəyyən qalıb.

### Bu, xəstəlikdir, başqa heç nəyə bənzəməz...

Amma alış-veriş, paltar sevdası bir çox hallarda ölümlə nəticələnməsə də, xəstəlik mənbəyi ola bilir. Alış-veriş xəstəliyi fərdin ehtiyac xaricində, məhdudiyyətsiz olaraq pul xərcləməsidir. Bu xəstəliyin adı "oniomani"dir və 1900-cü illərdə kəşf edilib. Olduqca qədim tarixi olan xəstəliyin günümüzdə çiçəklənməsinə isə bol-bol reklamlar, mövsüm sonu endirimlər, kampaniyalar, kredit kartları üçün təqdim edilən seçənəklər səbəb olub. Ona görə də bu xəstəliyi nəzarət pozğunluğu və asılılıq kateqoriyasında təhlil etmək olar. Bunu yaradan səbəblər arasında isə doyumsuzluq, bədbəxtlik, ikili və sosial münasibətlərdə problemləri göstərmək olar. İnsanlar daha çox gərgin və ya qəmgin olduqları zaman alış-veriş edirlər. Bu zaman insanın beynində xoşbəxtlik hormonu artır. Amma məhz bu xəstəliyə tutulanların daha sonradan peşman olmaları da diqqət çəkən məqamdır. Belə ki, xəstələrin özünü mağazalara atması gərginliyin nəticəsidir. Gərginliklə başlanan alış-veriş çılğınlığı insana öncə rahatlıq, ardınca isə peşmanlığı yaşadır.

Bu arada onu da qeyd etməliyik ki, sözügedən xəstəliyin daşıyıcıları böyük əksəriyyətdə qadınlardır. Onların bu xəstəliyi daşımaları cəmiyyətdə normal qəbul olunur. Bu, təxminən kişilərin birdən artıq qadınla eyni vaxtda münasibət qurmasına bənzəyir. Sonuncu variantda "kişidir, edə bilər" deyilirsə, qadınlara da eyni anlayış göstərilir.

Alimlər onu da müəyyənləşdirib ki, bu xəstəliyə düşməyin də xüsusi səbəbləri var. Bunlardan biri sahib olma ehtirasıdır. Bu xəstəliyin daşıyıcıları "pulum var, ya yox. Ehtiyacım var, yoxsa yox" kimi suallar ətrafında düşünmürlər. Onlar gördükləri, bəyəndikləri hər şeyi satın alırlar. Özlərinə yeni bir şey almayanda isə insanlar özlərini pis hiss edir, sıxıntı keçirir, hətta depressiyaya düşürlər.

Xəstəliyi yaradan ikinci səbəb isə insanda yaranan dəyərsizlik hissidir. Daha dəqiq ifadə etsək, dəyərsizlik, yalnızlıq, acıq, yasaqlanma kimi neqativ duyğular da alış-veriş xəstəliyinə yol aça bilər. Məhz bu səbəbdən bəzi insanlar alış-veriş edərək, özlərini dəyərli hiss edirlər. İnsan satın aldıqlarının ona dəyər qatacağına, gücülük hissi verəcəyinə inanır. Ancaq istədiyi şeyləri aldığı zaman ilk andakı həzz xaricində xəyal etdiyi hissi yaxalaya bilməyəndə dəyərsizlik hissi bu dəfə daha ağır şəkildə geri qayıdır. Bu zaman vəziyyət daha da qəlizləşir. İnsan o ilk andakı alış-veriş həzzini yenidən yaşamaq üçün gedərək artan bir sürətlə mağazalara hücum edir.

### Sağalmaq istəyən xəstələndiyini etiraf edəcək!

Amma bu məsələdə daha bir diqqətli məqam uşaqlarla bağlıdır. Belə ki, övladı ilə hörmət-izzət səviyyəsində münasibət qura bilməyən, amma maddi durumu yüksək olan valideynlər öz əskiklərini aldıqları saysız-hesabsız hədiyyələrlə öldürməyə çalışırlar. Bu da həmin uşağın gələcəkdə potensial alış-veriş xəstəsi olmasına gətirib çıxarır. Uşaqlar da hər istədiyinə sahib olmaq istəyirlər. Və bunun qarşısını almaq mümkün olmur. Evində bir oyuncaq mağazasındakı qədər oyuncağı olan uşaq üçün onlar yox, mağaza rəflərindəki oyuncaqlar daha cazibədar və maraqlıdır. Halbuki o oyuncaq rəfdən götürülüb, uşağa alındığı andan etibarən bütün cazibəsini, marağını itirmiş olur. Bu da xəstəliyin ən parlaq nümunəsidir.

Hər dərdin bir dərmanı var, şübhəsiz. Həkimlər müəyyənləşdirir ki, öncə bu davranışın altında yatan səbəblər həll edilməlidir. Müalicə üçün ilk addım heç şübhəsiz ki, bunun xəstəlik kimi qəbul edilməsidir. Əgər şəxs bunun xəstəlik yox, normal həyat tərzi, hobbi, zövq olduğunu iddia edirsə, müalicədən əlini üzsün. Qəbul edən şəxs isə psixoloqa müraciət edə bilər. Sonuncunu özünə rəva bilməyənlər isə praktik məsləhətlərə baş vursun. Bunlardan birincisi bayıra çıxanda kredit kartlarını götürməmək və ya pulqabına az pul qoymaq ola bilər. Bundan başqa, həyatın başqa sahələrində vaxt keçirmək də çıxış yolu ola bilər. Yemək, tikiş, rəsm... kursları ilə maraqlanmaq həm də zövqün kosmetik dəyişikliyi sayıla bilər.

### Praktik məsləhətlər var, əməl edənə, təbii ki...

Keçək digər praktik məsləhətlərə: 1. Bəyəndiyiniz bir malı görəndə almayın. Bir az gözləyin və ona həqiqətən ehtiyacınız olub-olmadığını düşünün. Və ya mağaza işçilərindən bəyəndiyiniz malı sizin üçün ayırıb saxlamalarını xahiş edin. Əgər bir neçə gün sonra o malı hələ də almaq istəyirsinizsə, o zaman alın. 2. Özünüzə hər ay bir alış-veriş büdcəsi hazırlayın və büdcəni əsla zorlamayın, aşmayın. 3. İki həftə içində etdiyiniz bütün alış-veriş xərclərini bir kənara yazın. Bu, sizin alış-verişə nə qədər çox pul xərclədiyinizi görmənizə səbəb olacaq. 5. Kredit karınızın(əgər varsa) limitini aşağı salın. Psixoloqlar düşünür ki, deyilən məsləhətlərə əməl edənlər tez bir zamanda sözügedən xəstəliyin pəncələrindən də qurtula biləcək.

Psixoloqlar onu da araşdırıb ki, iri alış-veriş mərkəzləri müştərilərin daha çox cəlb edilməsi üçün xüsusi hiylələr tətbiq edirlər və bu zaman mütəxəssis yardımından istifadə edirlər. Sonuncular elmi erqonomiya adlı sahəni təmsil edirlər və insanların alış-veriş zamanı necə düşündüyü, necə reaksiya verdiyi barədə dinamikalar üzərində işləyir. İlk təsbit: İnsanların çoxu solaxay olmadıqları üçün alış-veriş mərkəzlərinə girərkən öncə sağ tərəfə yönəlirlər. Buna görə də böyük mağazaların əksəriyyəti sağ tərəfdə yerləşdirilir. 2. Soyunma kabinələrini qəsdən mağazanın sonunda yerləşdirirlər ki, ora çatana qədər müştəri gözünə dəyən bir neçə qiyafəni də geyinmək üçün götürsün. 3. Market arabaları qəsdən böyük hazırlanır ki, insan hər dəfə ona baxdıqca guya az alver etməsi ilə bağlı təəssürata qapılsın. 4. Mağazalarda iri aynaları həm də ona görə qoyurlar ki, alış-veriş etmək istəməyən insan belə orada özünə və ətrafındakı geyim-gecimli insanlara baxıb kompleksə düşsün, nəticədə isə özünə paltar alsın. 5. Reklam kampaniyalarındakı "fürsəti qaçırmayın", "70 faiz" endirim kimi çağırışlar da insanı dərhal nəsə almağa təşviq edir.

Sevinc TELMANQIZI

# MilliÖn-ün "milli" kələyi

## Vətəndaşların ödədiyi əsginazlar... boşluğa düşür və "yox" olur...

**MilliÖn ödəmə terminallarında vətəndaşların pulu qəribə bir metodla mənimsənilir. Bununla bağlı redaksiyamıza dəfələrlə şikayətlər edilib. Son bir ayda isə "Yeni Müsavat"ın iki əməkdaşı da belə problemlə üzləşib.**




Əməkdaşlarımızdan biri oktyabrın 29-da 7-ci mikrorayon ərazisində - "Çudo Peçka"nın qarşısında qoyulan MilliÖn aparatından mobil telefonuna ödəniş etmək istəyib: "Nömrəni yığdım, yaşıl işıq yandı, pulu aparata daxil etdim. Lakin 10 manatlıq əsginaz aparatın kassasına deyil, boşluğa düşdü. Dərhal bu barədə *0010 nömrəsinə yığıb MilliÖn şəbəkəsinin qaynar xəttinə məlumat verdim. Bildirdilər ki, qısa müddətdə pulu boşluqdan çıxarıb sizə məlumat veriləcək. 3-4 gün gözləsəm də, heç bir məlumat verilmədi. Daha sonra noyabrın 5-də onlarla yenidən əlaqə saxladım. Dedilər ki, sizə 6 iş günü ərzində məlumat veriləcək, ödənişiniz həyata keçiriləcək. Məsələ heç də 10 manatda deyil, sadəcə vətəndaşlarla bu cür etinasız davranış xidmət sektoru üçün yolverilməzdir. Həmçinin, məlum oldu ki, ödəniş terminallarında pul qoyulan hissə etibarsızdır, xeyli sayda insanın ödədiyi pul boşluğa daxil olub. Orada yaşıl işığın altında boşluq var. Mənə o da bəlli oldu ki, bu yaxınlarda digər bir əməkdaşımızın da pulu eyni qaydada həmin boşluğa düşüb və onu geri ala bilməyib. Həm də bir jurnalist marağı ilə MilliÖn-un qaynar xəttinə noyabrın 13-də bir daha telefon açdım. Operator bildirdi ki, bəli, sizin müraciətiniz araşdırılıb və 10 manatınız aparatın daxilində aşkarlanıb. Soruşdum ki, bəs bu haqda müştəriyə niyə məlumat vermirdiniz? Dedilər vaxtımız olmayıb. Bu absurd cavabdan sonra dedilər ki, qısa müddətdə 10 manatlıq ödəniş telefonunuza yüklənəcək. Lakin onun üzərindən də 3 gün vaxt keçir, ödəniş həyata keçirilməyib. Belə başa düşülür ki, vətəndaş bu məsələdə prinsipiallıq göstərsə də, MilliÖn-un əməkdaşları "milli" kələyi başa çatdırmaqda sonadək israrlıdırlar. Faktiki olaraq 18 gün ərzində israrlı tələbimizə baxmayaraq, aparata düşmüş pulu almaq mümkün olmur".

M.MAHRIZLI

YENİ MÜSAVAT
Son səhifə
N 254 (6282) 16 noyabr 2015

# Çində kəndli qadınlar saçını kəsdirmir

Çində yaşayan kəndli qadınlar saçlarını heç vaxt kəsdirmirlər. Hətta aralarında saçının uzunluğu 5,5 metr olan xanımlar da var. Çinin bir çox kəndində olduğu kimi Hunaglio kəndində də turistlərin diqqətini cəlb etmək üçün maraqlı ənənələr var. Kəndin ən maraqlı özəlliyi qadınların uzun saça sahib olmasıdır. Üstəlik qadınlar uzun saçın uzun ömür və zənginlik gətirdiyinə inanırlar. Kənddə yaşayan 120 qadının saçının ortalama uzunluğu 1,7 metrdir. Bəzi qadınların saçlarının uzunluğu 5,5 metrdir. Kənddə yaşayan çinli qadınlar ömürlərində bir dəfə saç kəsdirə bilərlər. Onu da 16 yaşlarına çatdıqda özlərinə həyat yoldaşı axtarmağa başladıqları zaman edirlər. Hər bir qadının saç stili onlar haqqında fikirlər yaradır. Məsələn, saç sadəcə başa sarılıbsa bu qadının evli, amma uşaqsız olduğunu göstərir. Saçın ön tərəfdə yığılması qadının evli və uşağı olduğu deməkdir. Əgər qadın başını bağlayıbsa bu onun subay olduğunu və ərə getmək istədiyini bildirir. Qadınların gözəl saçlarının olması onların düyü suyunda yuyunması ilə bağlıdır.





# Balqabaq şirəsinin faydaları

Uzun sürən müalicə prosedurlarından, gərgin fiziki və zehni yorğunluqdan sonra orqanizmin bərpası üçün balqabaq şirəsi ən yaxşı vasitə hesab olunur. Onun tərkibində pektin olduğu üçün bu içki güclü antioksidantdır. Buna görə də balqabaq şirəsi orqanizmin xolestroldan və ağır metallardan təmizlənməsində mühüm rol oynayır. Balqabaq şirəsi sidikqovucu xassəyə malikdir. Böyrək daşlarının salınması üçün təbii məlhəmdir. Bu şirə maddələr mübadiləsini normallaşdırır, qaraciyərin fəaliyyətini yaxşılaşdırır, mədə-bağırsaq sistemi üçün xeyirlidir. Ürək damar xəstəlikləri zamanı balqabaq şirəsindən istifadə olduqca faydalıdır. Hipertoniyadan əziyyət çəkənlər də balqabaq şirəsindən faydalana bilərlər. O, qan təzyiqinin aşağı salınmasında əvəzolunmaz vasitədir. Bu şirə qanda şəkərin də səviyyəsini aşağı salır. Buna görə də şəkərli diabet xəstəliyindən əziyyət çəkənlərə balqabaq şirəsi məsləhət görülür. Balqabaq şirəsi prostat vəzin xəstəliklərinə qarşı profilaktika üçün ən yaxşı içkilərdən biri sayıla bilər. Bu möcüzəvi faydaları olan içki hamilə qadınların ümumi vəziyyətinə də müsbət təsir göstərir. Xüsusilə ürəkbulanma zamanı balqabaq şirəsi öz effektini verir.

# Suyu iki dəfə qaynatmayın...

Çoxlarınız çay və ya qəhvə hazırlamaq üçün suyu çaydana töküb qaynamağa qoymusunuz və telefon zəngi, sevimli serial, ailə üzvlərindən kiminsə sizi çağırması və s. bu kimi səbəblərdən çay içməyi unutmusunuz. Mətbəxə qayıtdıqda çaydandakı suyun artıq soyuduğunu görüb onu yenidən isitmisiniz. Lakin suyun təkrarən isidilməsinin sağlamlığa nə qədər ziyanlı olduğunu bilirdinizmi? Belə ki, qaynadıqdan sonra suyun tərkibi dəyişir, zərərli maddələr buxarlanır və su içmək üçün təhlükəsiz olur. Ancaq su uzun müddət qaynadıqda və ya təkrarən isidildikdə onun tərkibindəki kimyəvi maddələr buxarlanmaq əvəzinə yenidən yığılmağa başlayır. Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) iddia edir ki, mərgümüş suyun tərkibində olduqda əhalinin sağlamlığı üçün daha çox təhlükə yaradır. Mərgümüş orqanizmdə tədricən yığılaraq mədə-bağırsaq traktı xəstəlikləri, periferik neyropatiya, ürək-damar sistemi xəstəlikləri, böyrək çatışmazlığı, dəri zədələnmələri, diabet və hətta xərçəng kimi xəstəliklərə gətirib çıxara bilər.






# Qatıq insanı xoşbəxt edir

Hollandiyada aparılan araşdırmalar nəticəsində məlum olub ki, vanilli qatıq insanı xoşbəxt edir. "Wageningen UR Food & Biobased Research" adlı təşkilatın alimləri qatığın insanı xoşbəxt etməklə bərabər özünü güclü hiss etməsinə də səbəb olduğunu deyiblər. Araşdırmaçı Jozina Mojet qeyd edib: "Əldə etdiyimiz nəticələr bizi təəccübləndirdi. Elmi olaraq əldə etdiyimiz nəticələr və bir çox insanın üzərində keçirdiyimiz təcrübələr qatıq istehsalçılarına da yol göstərəcək". "Food Research International" adlı jurnalda yayımlanan araşdırma nəticələrinə görə, bir çox şəxsə içərisində fərqli dadlar, qatqılar olan qatıqlar yedizdirilib. Daha sonra isə onların psixologiyası yoxlanılıb. Ən sonda isə onlardan müsahibə alınıb. Nəticədə məlum olub ki, içində sadəcə vanil olan qatığı yeyənlər özlərini daha xoşbəxt hiss edirlər.




**QOÇ** - Risk etməkdən çəkinməyin. Onsuz da həyatda hər şeyə bu yolla nail olmusunuz. Nahar ərəfəsində mühüm şəxslərlə görüşləriniz gözlənilir. Unutmayın, indi zaman xeyrinizə işləyir.

**BUĞA** - Ürəyinizcə olan olaylarla qarşılaşacaqsınız. Bu kimi hadisələr gələcəyinizi təyin etməkdə sizə yardımçı olacaq. Ailə üzvlərinizin ən xırda probleminə də biganə qalmayın. Səfərə çıxmayın.

**ƏKİZLƏR** - İkitərəfli əməkdaşlıq üçün münasib vaxtdır. Lakin təşəbbüskarlığı əldən versəniz, uduza bilərsiniz. Çalışın ki, müzakirələrdəki müsahibləriniz sizin rəyinizlə hesablaşa bilsin.

**XƏRÇƏNG** - İş yerində bəzi xoşagəlməzliklə rastlaşacağınız güman olunur. Odur ki, narazı qaldığınız məsələləri münaqişə həddinə çatdırmamalısınız. Günortadan sonra işlərinizdə dönüş yaranacaq.

**ŞİR** - Nüfuzunuza güvənməyin. Hər bir müsahibinizlə sadə dildə danışın ki, rəğbət qazanasınız. Üzərinizə düşən hər hansı vəzifəni başqalarının hesabına həll etməyə çalışmayın.

**QIZ** - Daha çox sağlamlığınızın qayğısına qalın. Soyuq qidalar qəbul etməyin. Dünyadan getmişlərinizə dualar oxuyun ki, həyat tərziniz müsbətə doğru dəyişsin. Gecə başqa evdə qalmayın.

**TƏRƏZİ** - Maraqlı adamlarla rastlaşacağınızdan xəbər verən ulduzlar mövcud problemlərinizin həllinə yaxınlaşdığınızı da istisna etmir. İşdən sonra qonaq çağrılma ehtimalınız böyükdür.

**ƏQRƏB** - Təmkin nümayiş etdirməsəniz, axşama qədər mübahisəli situasiyalarla baş-başa qalacaqsınız. Baş verən hər bir hadisəyə reallığın gözü ilə baxın. Günün ikinci yarısında təzə xəbər eşidəcəksiniz.

**OXATAN** - Ümumi gərginlik hökm sürdüyündən qeyri-ənənəvi işlərdən yayınmalısınız. Çalışın ki, cılız adamlara görə enerjinizi itirməyəsiniz. Yalnız etibarlı şəxslərlə əlaqə yaradın.

**OĞLAQ** - Ciddi işlərinizin həllini bu günlük təxirə salın. Onsuz da ulduzların düzümü bu istiqamətdə müvəffəqiyyətə yetişəcəyinizə təminat vermir. Axşamüstü yaxınlarınıza baş çəkin.

**SUTÖKƏN** - O qədər də ürəkaçan gün deyil. Ümumi əhvalınızda gərginlik və hövsələsizlik nəzərə çarpacaq. Bu amili nəzərə alıb risk və mübahisələrdən uzaq olmalısınız. Tələsik qərar çıxarmayın.

**BALIQLAR** - Təxminən saat 17-yə qədər ovqatınızın xoş keçəcəyi ehtimal olunur. Hətta bir qədər aktiv olsanız, şəxsi büdcənizi də artıra bilərsiniz. Fəaliyyət istiqamətlərini genişləndirin.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# İlanla intihar



Amerikanın Texas ştatına aid Auistin şəhərində yaşayan ilan həvəskarı bir gənc ilan köməyi ilə intihar edib. 18 yaşlı Grant Tomson maşının içərisində cansız halda tapdığı gəncin ölüm səbəbini araşdırmaq üçün xəstəxanaya aparıb. Cəsədin üzərində aparılan araşdırmalar nəticəsində məlum olub ki, Tomson bir neçə dəfə ilan dişlədikdən sonra ölüb. Narkotik maddə istifadə etdikdən sonra özünü bir neçə dəfə kobra cinsindən olan ilana dişlədib. Tomsonun ilanla boğuşduğu haqda bir iz tapılmadığı üçün həkimlər onun intihar etdiyini deyiblər.

Səhifəni hazırladı: ŞAHNAZ

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN
e-mail adres: yenimusavat@mail.ru
Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)
Redaktor: Zahid SƏFƏROĞLU
Lisenziya N: B 114
SAYI: 4.300
"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "E-Q" mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır.
Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.